RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 52 (8368) ŞƏNBƏ, 7 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# 5 rayona səfər, 17 yeni müəssisənin açılışı

**Prezident İlham Əliyevin respublikanın qərb bölgəsinə səfəri, açdığı yeni müəssisələr, keçirdiyi görüşlər, verdiyi tapşırıqlar regionun sosial-iqtisadi inkişafına böyük töhfə verəcək**

**Regionların yüksəlişi ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Son 16 ildə bu istiqamətdə kompleks tədbirlər həyata keçirilir.**

Prezident İlham Əliyev regionların inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş infrastruktur layihələrinin necə həyata keçirildiyini mütəmadi olaraq nəzarətdə saxlayır və ilin sonunda icra vəziyyəti ilə bağlı xüsusi müşavirələr keçirir. Bütün bunlar bir daha təsdiqləyir ki, regionların inkişafı hər zaman dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir.

### Koronavirus təhlükəsinə baxmayaraq, Prezident bölgəyə səfərlərini təxirə salmadı

Hazırda regionların sosial-iqtisadi inkişafı ilə bağlı IV Dövlət Proqramı icra olunmaqdadır. Martın 3-ü və 4-də respublikanın qərb bölgəsinə - Goranboy, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonlarına səfər edən dövlət Prezident dövlət proqramı çərçivəsində həyata keçirilən layihələrin icrası ilə tanış oldu, yeni sosial obyektlərin, müasir avtomobil yollarının, mədəniyyət ocaqlarının açılışlarını etdi.

Öncə onu vurğulayaq ki, bu səfər son günlərdə dünyanı cənginə almış koronavirus epidemiyasının ölkəmizdə də yayılma təhlükəsinin yaşandığı bir zamana təsadüf etdi. Belə təhlükənin olmasına baxmayaraq, Prezident bölgəyə səfərlərini təxirə salmadı, 5 rayonda müxtəlif obyektlərin açılışında iştirak etdi, ictimaiyyət nümayəndələri, Tovuz "ASAN xidmət"in könüllüləri və əməkdaşları ilə görüşlər keçirdi.

Ən çətin, təhlükəli anlarda belə daim xalqın yanında, insanların arasında olan ölkə Prezidenti bu təhlükədən də çəkinmədi. Bu, xalqın öz liderinə olan inamını, etimadını daha da artırmış oldu. Çünki koronavirus təhlükəsinin davam etdiyi zamanda əksər dövlət başçıları həm daxili və xarici səfərlərini, həm də görüşlərini təxirə salıblar. Koronavirusun yayıldığı ölkələrin heç birində dövlət başçısı kütləvi yerlərdə olmur, insanlarla görüşmür.

Amma xalq şahiddir ki, Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban Əliyeva hər zaman cəsarətli addımları ilə nümunə olublar. İstər zəlzələ-daşqın, istərsə də cəbhə bölgəsində hərbi əməliyyatlar gedən zaman hər hansı təhlükədən çəkinməyərək bilavasitə yerlərə səfər edib, vəziyyətlə şəxsən tanış olublar, insanlarla görüşüb, bütün məsələlərin həlli ilə bağlı göstəriş və tövsiyələrini veriblər.

Bu, ölkə rəhbərinin daim vətəndaşın yanında olması, xalqla Prezident birliyinin nümayişidir.

*Ardı 2-ci səh.*

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinə

Sizi - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bütün üzvlərini təşkilatınızın 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir və hamınıza gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Könüllülük prinsipi əsasında yaradılmış Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bu yubileyinin ölkəmizdə "Könüllülər ili" ilə eyni vaxta təsadüf etməsinin rəmzi mənası vardır. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün yadigarlarından olan və əsası 1920-ci ilin mart ayında qoyulan Qızıl Aypara Cəmiyyəti ilk günlərdən xalqa təmənnasız xidməti özünün amalına çevirmişdir. Sosial məsələlərin həllinə yaxından köməklik göstərməsi və fəaliyyətinin başlıca qayəsini könüllülük, insanpərvərlik və xeyirxahlıq kimi nəcib keyfiyyətlərin təşkil etməsi cəmiyyətə nüfuz qazandırmışdır. Qızıl Aypara Cəmiyyəti müharibədən, təbii və texnogen fəlakətlərdən zərər çəkənlərə, əhalinin sosial cəhətdən qayğıya möhtac təbəqələrinə yardımını əsirgəməmiş, eyni zamanda insanlara mənəvi dəstək vermiş və inam hissi aşılamışdır.

Xalqımızın tarixən çətin məqamlarında həssaslığı və operativliyi ilə seçilmiş Qızıl Aypara Cəmiyyətinin öz məramına sadiq qalaraq fədakarlığını Ermənistanın respublikamıza qarşı işğalçılıq siyasəti nəticəsində doğma yurdlarından qovulan bir milyondan çox soydaşımızın sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və sonrakı reabilitasiyasında da davam etdirməsi təqdirəlayiqdir.

Bu gün Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olaraq bir sıra sosial-tibbi və humanitar layihələri uğurla gerçəkləşdirən Azərbaycan Qızıl Aypara Cəmiyyəti ölkə miqyasında mühüm vəzifələrin yerinə yetirilməsinin fəal iştirakçılarındandır.

İnanıram ki, Qızıl Aypara Cəmiyyəti öz ənənələrini layiqincə yaşadaraq ölkəmizin sosial-ictimai həyatında özünəməxsus yerini qoruyacaq, vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması naminə dövlətimizin həyata keçirdiyi proqramlarda bundan sonra da əzmkarlıq nümayiş etdirəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2020-ci il*

## Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 100 illiyi münasibətilə və aztəminatlı vətəndaşlara sosial xidmət və humanitar yardım göstərilməsi sahəsindəki xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Rəhimov Elxan Rafiq oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Vəliyev Yaşar Vəli oğlu

**"Tərəqqi" medalı ilə**

Axundov Nizami Ağaməmməd oğlu
Atakişiyeva Türkanə Ərşad qızı
Cəbrayılova Tamella Rza qızı
Cəfərov Fizuli İsaxan oğlu
Əyyamzadə Rauf Vilayət oğlu
Heydərov Etibar Əşrəf oğlu
Hüseynov Əli Kamal oğlu
İsmayılov Xanlar Xeyrulla oğlu
Mədətov Həsən Xandadaş oğlu
Məhbubi-İran Səbinə Maqsud qızı
Məmmədov Soltan Təbriz oğlu
Məmmədzadə Günel Adil qızı
Miriyev Zəfər Mircəfər oğlu
Mirzəyev Aslan İbrahim oğlu
Nağıyeva Ceyran Nəriman qızı
Soltanov Tofiq Mirzə oğlu
Vəliyev Bayram Vaqif oğlu
Yusifov Şahin Yusif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 mart 2020-ci il*

## Azərbaycan İƏT-ə maliyyə yardımı edib

Afrikanın Sahel regionunda gərgin sosial-iqtisadi vəziyyətlə əlaqədar İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərə müraciətinə cavab olaraq qurumun Nigerdəki humanitar və inkişaf idarəsinin regional ofisə çevrilməsinə dəstəyin verilməsi məqsədilə Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən bu təşkilata 100 min ABŞ dolları məbləğində yardım edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, İƏT-in sözügedən idarəsinin regional ofisə çevrilməsi ilə əlaqədar qərar 2019-cu il martın 1-2-də Əbu-Dabidə keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 46-cı sessiyası və mayın 31-də Məkkədə keçirilmiş İƏT-in Dövlət və Hökumət başçılarının 14-cü Sammitində qəbul olunub.



# 4381 tanker «qara qızıl»

### BTC-nin indiyədək daşıdığı 447 milyon tondan çox neft dünya bazarlarına bu tankerlərlə çatdırılıb

Hazırda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin 1768 kilometrlik məsafə boyu keçdiyi ərazilərin əksəriyyəti qar və buzla örtülüb. Bununla belə, kəmər ahəngdar və təhlükəsiz şəkildə fəaliyyətini davam etdirir. Başqa cür ola da bilməz. Cünki BTC regionun başlıca neft ixracı arteriyasıdır.

BTC-nin təhlükəsizliyi ilk növbədə nefti daşıyan boruların vaxtilə - tikinti zamanı etibarlı şəkildə örtüklənməsindən və onların torpağın altında basdırılmasından irəli gəlir. Kəmərin 8 nasos stansiyasının (bunların 2-si Azərbaycanda, 2-si Gürcüstanda və 4-ü Türkiyədədir), digər çoxsaylı yerüstü qurğularının fəaliyyəti isə dəqiq və böyük səriştə ilə idarə olunur. Layihənin əməliyyatçısı olan BP şirkətindən aldığımız məlumata görə, 2019-cu il ərzində BTC üzrə əməliyyatlara təqribən 138 milyon dollar, əsaslı xərclərə isə 44 milyon dollara yaxın vəsait xərclənib.

BTC Ko.-nun səhmdarları: BP (30,1 faiz) AzBTC (25 faiz), "Şevron" (8,9 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,4 faiz), İNPEKS (2,5 faiz), "EksonMobil" (2,5 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

BTC-nin daşıdığı neftlə yüklənən ilk tanker dünya bazarlarına 2006-cı ilin iyun ayında yola salınıb. Həmin vaxtdan 2019-cu ilin sonunadək bu boru kəməri ilə ümumilikdə 447 milyon tondan artıq (3,35 milyard barel) xam neft nəql edilib. Neftin Ceyhanda yükləndiyi tankerlərin sayı isə 4381-i ötüb.

İl ərzində isə BTC vasitəsilə təqribən 31 milyon ton (233 milyon bareldən çox) xam neft ixrac olunub. Ceyhandan dünya bazarlarına 296 tanker yola salınıb.

*Ardı 7-ci səh.*

## Nəzarət gücləndirilir

### Hökumətin koronavirusa qarşı apardığı tədbirlər ən yüksək səviyyədə davam edir

**"Vətəni" Çinin Uhan şəhəri sayılan, hazırda 90 ölkə və regionu əhatə edən koronavirus epidemiyası dünyaya şaxələnməkdə davam edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son hesabatına əsasən, dünyada 98782 nəfər koronavirusa yoluxub. İndiyədək 3390 nəfər koronavirusdan ölüb. Virusa yoluxanlardan 55 804 nəfər sağalıb.**

Hazırda 39588 nəfərin xəstəliyi davam edir. Onlardan 33350 nəfərin vəziyyəti sabitdir, 6238 nəfərin vəziyyəti isə ciddidir.

Koronavirusun kütləvi yayıldığı ölkələr Çin, Cənubi Koreya, İtaliya və İrandır.

ÜST-ün baş direktoru Tedros Adanom Qebreyesus Cenevrədə keçirilən brifinqdə Çinin və bir sıra digər ölkələrin koronavirusla mübarizə sahəsindəki səylərini yüksək qiymətləndirərək bildirib ki, onların təcrübəsi xəstəliyin yayılmasının qarşısının alına biləcəyini göstərir: "Epidemiya bütün hökumət mexanizmlərini özündə cəmləşdirən kollektiv, razılaşdırılmış və əhatəli bir yanaşma ilə dayandırıla bilər". O, bununla əlaqədar olaraq bütün dövlətləri "tez, geniş miqyasda və şüurlu şəkildə hərəkət etməyə" çağırıb.

Tedros Adanom Qebreyesus deyib ki, son 24 saat ərzində 33 ölkədə yeni yoluxma halları qeydə alınıb. Ancaq 115 ölkədə bir nəfər belə yoluxmayıb, 21 ölkədə yalnız bir xəstəlik qeydə alınıb. Beş ölkədə isə son iki həftə ərzində yeni yoluxma halına rast gəlinməyib.

Bununla belə, ÜST virusun daxil olduğu ölkələrin sayının getdikcə artmasından narahatdır.

### Koronavirus dünyada "at oynadır"

Son hesablamalara görə, Çində koronavirusdan ölənlərin sayı 3042 nəfərə çatıb. Ölkədə 53,7 min nəfər sağalaraq xəstəxanalardan evə buraxılıb.

*Ardı 3-cü səh.*



# Ölkədə təmirsiz yol qalmamalıdır

### Prezidentin qarşıya qoyduğu bu vəzifə 4-cü regional inkişaf proqramının hədəflərindən biridir

Azərbaycan bu gün dünyada nəqliyyat infrastrukturunun mükəmməlliyinə görə öndə gedən ölkələrdəndir. Bu sahədə ölkəmiz hətta bir sıra inkişaf etmiş Avropa dövlətlərini də geridə qoyub. Amma biz bununla kifayətlənmirik. Prezident İlham Əliyev regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda demişdir: "Baxmayaraq ki, ölkəmizdə bu sahədə böyük layihələr icra edilib, ancaq infrastruktur layihələrin icrası bundan sonra da davam edəcək".

Dövlət başçısının Hacıqabul-Muğan avtomobil yolunun tikintisi ilə bağlı imzaladığı növbəti sərəncam bu sahədə görülən işlərin davam etdirilməsinin sübutudur. Həmin sənədə əsasən, 32 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Hacıqabul-Muğan avtomobil yolunun tikintisi üçün 2020-ci il dövlət büdcəsindən 4,9 milyon manat vəsait ayrılıb.

Prezident İlham Əliyev fevralın 12-də Kürdəmir rayonuna səfəri çərçivəsində Pirili-Muradxan-Sor-Sor avtomobil yolunun yenidən qurulmasından sonrakı açılış mərasimində nəqliyyat infrastrukturu sahəsində görülən işlərin ölkə üçün xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: "Regional inkişaf proqramında da bu, nəzərdə tutulub. Ona görə dördüncü proqram başa çatanda bir dənə də təmirsiz yol qalmamalıdır".

Ötən il ölkə üzrə 1000 kilometr avtomobil yolunun çəkilməsi və yenidən qurulması nəzərdə tutulmuşdu. Lakin görülən operativ işlər sayəsində il ərzində 1300 kilometr avtomobil yolu salındı və yenidən quruldu. Özü də yüksək keyfiyyətlə. Yeri gəlmişkən qeyd edək ki, avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 27-ci yerdə qərarlaşıb.

*Ardı 7-ci səh.*



# 5 rayona səfər, 17 yeni müəssisənin açılışı

*Əvvəli 1-ci səh.*

## İndiyədək bölgələrdə 70 müasir tibb ocağı istifadəyə verilib

Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında Prezidentin etdiyi çıxışdan bir daha hər kəsə bəlli oldu ki, hazırda Azərbaycan müasir səhiyyə infrastrukturuna malikdir. Ölkədə səhiyyənin maddi-texniki bazası ən yüksək səviyyədədir. Paytaxt Bakıda və bölgələrdə tibb müəssisələri müasir standartlara cavab verir, onlardakı tibbi avadanlıq dünyanın aparıcı xəstəxanalarında olan avadanlıqlardan fərqlənmir. Son 16 ildə Azərbaycanda 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub. Bölgələrdə bu sahədə vəziyyət necədir? Faktlara diqqət yetirək:

- *16 ildə regionlarda 22 yeni xəstəxana açılıb;*
- *5 diaqnostika müalicə mərkəzi inşa edilib;*
- *28 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub;*
- *5 xəstəxananın tikintisi davam edir;*
- *70 müasir tibb ocağı istifadəyə verilib.*

Bütün bunlar bir daha təsdiq edir ki, ölkəmizdə əhalinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir. Prezidentin açılışını etdiyi Goranboy və Qazax Rayon Mərkəzi xəstəxanaları da dövlət investisiya proqramı çərçivəsində, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının əsasında inşa edilib. Bunun əsas məqsədi vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsidir.





## 16 ildə 17 min kilometr yol çəkilib

Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun sosial-iqtisadi inkişafı istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər ilk növbədə vətəndaşların həyatının yaxşılaşdırılmasına yönələn layihələrin davamlı olmasını nümayiş etdirir.

Belə layihələrdən bir neçəsi də qərb bölgəsində reallaşıb. Dövlət başçısının Goranboyda açılışını etdiyi Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu yolu, Şəmkir-Abbaslı-Nərimanlı yolu, Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına yolu, Qazaxda Daş Salahlı-Ürkməzli-Dəmirçilər, Tovuzda isə Qovlar-Əyyublu-Alakol-İbrahimhacılı-Yanıqlı-Ağacqala-Qoçdərə-Çobansığnaq-Yoğunbulaq - Sarıtala avtomobil yolları həm əhalinin rahat hərəkətində, həm də rayon, şəhər mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Ümumiyyətlə, son 16 ildə ölkədə 17 min kilometr yol çəkilib. Təkcə 2019-cu ildə ölkə üzrə 1300 kilometr yol salınıb.

Son illərdə ölkəmizdə diqqət göstərilən sahələrdən biri də xalçaçılığın inkişafıdır. Prezidentin göstərişi ilə Azərbaycanın əksər şəhər və rayonlarında "Azərxalça"nın filialları yaradılır. Səfər çərçivəsində dövlət başçısının tanış olduğu "Azərxalça"nın Goranboy, Ağstafa, Tovuz və Qazax filialları da xalçaçılığın bu regionda inkişafına ciddi töhfə verəcək.

## 18-ci "ASAN xidmət" mərkəzi

Dövlət başçısı 2 gün müddətində 5 rayonda səfərdə oldu və mühüm obyektlərin - 5 yol infrastrukturunun, 5 ("Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksi, 110/35/10 kilovoltluq "Ağstafa" elektrik yarımstansiyası, Ağstafa Aqrar Sənaye Kompleksi, Qazaxda yeni əhəng zavodu, Tovuzda "ASAN həyat" Kompleksi) yeni müəssisənin, 3 (Tovuzda Aşıq Sənəti Dövlət Muzeyi, Tarix-Diyarşünaslıq Muzeyi və Dövlət Rəmzləri Muzeyi) mədəniyyət ocağının, 2 hərbi hissənin və 2 (Goranboy, Qazax) xəstəxananın açılışını etdi. 4 rayonda "Azərxalça"ın filialında oldu, görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi. Tovuzda açılan "ASAN xidmət"lə ölkəmizdə bu mərkəzlərin sayı 18-ə yüksəldi.

Prezidentin respublikanın qərb bölgəsində açılışını etdiyi 17 yeni müəssisə məşğulluğun artmasına, əhalinin sosial-rifahının yüksəlməsinə, regionun ümumi inkişafına böyük töhfə verəcək.

Beləliklə, regionların sosial-iqtisadi inkişafına dair qəbul edilən dövlət proqramlarının, verilən qərarların, imzalanan sərəncamların uğurla icrası onu deməyə əsas verir ki, ötən il olduğu kimi, bu il də Azərbaycanın hər bir şəhərində, rayonunda, qəsəbə və kəndində abadlıq-quruculuq işləri davam edəcək. Yeni qəbul olunan dövlət proqramına uyğun olaraq regionların inkişafı istiqamətində mühüm işlər görüləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın Baş Naziri ukraynalı həmkarını təbrik edib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Ukraynanın Baş Naziri təyin edilməsi münasibətilə Denis Şmıqala təbrik məktubu göndərib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, məktubda deyilir:

"Ukraynanın Baş Naziri vəzifəsinə təyin olunmağınız münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan ilə Ukrayna arasındakı ənənəvi dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığımız dövlətlərarası münasibətlərimizin inkişafı üçün möhkəm bünövrədir. İkitərəfli əlaqələrimizin, strateji əməkdaşlığımızın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində birgə addımlar atacağımıza ümidvar olduğumu bildirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Ukrayna xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram".

# Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclası keçirilib

**Martın 6-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilib. YAP-dan AZƏRTAC-a bildiriblər ki, iclasda YAP İdarə Heyətinin 2019-cu ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının tərkibi, Gənclər Birliyinin və Qadınlar Şurasının tərkibi haqqında 2019-cu ilə dair illik statistik hesabat, partiyanın 2019-cu il üzrə maliyyə hesabatı və İdarə Heyətinin 2020-ci ilin mart ayına dair iş planı müzakirə olunaraq qəbul edilib.**

İdarə Heyətinin iclasında 2019-cu ildə Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında cəmiyyət və dövlət həyatının bütün sahələrini əhatə edən uğurlu islahatların, Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişafın davam etdiyi xüsusi qeyd edilib. Vurğulanıb ki, 2019-cu il müstəqil Azərbaycanın tarixində ən mühüm siyasi hadisələrdən biri ölkəmizdə bələdiyyə seçkilərinin keçirilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2020-ci il 9 fevral tarixinə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərə hazırlıq işlərinin başlanması olub.

Yeni Azərbaycan Partiyası 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərinə hazırlıq işlərini və bütövlükdə seçki kampaniyasını çox uğurla başa çatdırıb, təşviqat kampaniyası çərçivəsində ölkənin hər bir yaşayış məntəqəsini əhatə etməklə seçicilərlə möhtəşəm görüşlər keçirilib. Son bələdiyyə seçkiləri Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə inam və dəstəyinin növbəti və möhtəşəm təntənəsi oldu. Azərbaycan seçicilərinin mütləq əksəriyyəti Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamına - Azərbaycanın dinamik inkişafına və qüdrətli gələcəyinə səs verdi. Nəticədə, Yeni Azərbaycan Partiyasının namizədləri seçicilərin böyük əksəriyyətinin dəstəyini qazanaraq 10432 bələdiyyə üzvü mandatına sahib oldu.

Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin 2020-ci il fevralın 9-da Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi barədə 2019-cu il 5 dekabr tarixli Sərəncamından dərhal sonra seçki hazırlıqları prosesinə start verib, qısa zaman ərzində bütün yerli təşkilatlarda seçki qərargahları yaradılıb, seçki qanunvericiliyinin tələblərindən irəli gələn tədbirləri həyata keçirib. Hesabat dövründə Yeni Azərbaycan Partiyası müxtəlif xarakterli bir sıra mühüm tədbirlər həyata keçirib, ölkənin ictimai-siyasi həyatında yaxından və fəal iştirakını davam etdirib.

YAP hesabat dövründə beynəlxalq əlaqələrinin daha da şaxələndirilməsi istiqamətində səylərini uğurla davam etdirib. Müxtəlif ölkələrin aparıcı siyasi partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında mövcud münasibətlər daha da genişləndirilib, bu istiqamətdə mühüm görüşlər keçirilib.

Hesabatda daha sonra qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının sıralarının genişlənməsi ötən il ərzində də davam edib, bu dövr ərzində 26 min nəfərdən çox yeni üzv qəbul olunub və beləliklə, partiya üzvlərinin sayı 756 min nəfəri keçib. Partiyaya daxil olanların sırasında gənclər və qadınlar üstünlük təşkil edib.

İdarə Heyətinin iclasında YAP-ın 2019-cu ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilib. Qeyd olunub ki, 2019-cu ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 10 668 284 manat olub. Bunun 9 309 025 manatını üzvlük haqları, 1 359 259 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil edib.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 5 307 213 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əməkhaqqının ödənilməsinə, 884 663 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 91 515 manatı ezamiyyə xərclərinə, 163 376 manatı nəqliyyat vasitələrinin alınmasına, 281 053 manatı mebel və ofis avadanlıqlarının alınmasına, 214 214 manatı təmir işlərinə, 481 232 manatı kommunal və təsərrüfat xərclərinə, 300 908 manatı yanacaq və avtomobillərə xidmət işlərinə, 75 862 manatı bank xidmətinə, 57 607 manatı dəftərxana xərclərinə, 49 790 manatı çap işlərinə, 234 171 manatı kredit ödənişinə, 270 194 manatı isə sair xərclərə sərf edilib.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib

Martın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri qoyublar. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarı ziyarət olunub, üzərinə tər çiçəklər düzülüb.

Tədbirdə çıxış edən komitənin sədri Hicran Hüseynova ölkəmizdə qadınlara dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğıdan danışıb. O deyib ki, ölkəmizdə aktiv, öz fəaliyyəti ilə seçilən qadınların sayı çoxdur. Azərbaycan qadınları istənilən sahədə uğur qazanmaqla yanaşı, gözəl ailə sahibi olmağı və Vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna xüsusi ehtiramla yanaşıb.

XXI əsrin Azərbaycan qadınının qarşısında bir sıra yeni vəzifələr qoyduğunu deyən H.Hüseynova diqqətə çatdırıb ki, qadın dünyadakı inkişafa uyğunlaşmaq və özünü cəmiyyətdə təsdiq edə bilmək üçün ilk növbədə təhsilli, peşəkar olmalıdır. Azərbaycanda qadın hərəkatı gündən-günə inkişaf edir. Bu, həm bizim tarixi ənənələrimizlə, həm də həyata keçirilən dövlət qadın siyasəti ilə və onlara yaradılan şəraitlə bağlıdır. Qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan istifadə edirlər. Onlar hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqətini görürlər.

Hicran Hüseynova deyib ki, bu gün dünya ölkələrində əhalinin yarısını, bəzi ölkələrdə isə hətta yarıdan çoxunu qadınlar təşkil etdiyindən yeni inkişaf gündəliyi məhz qadın hüquqlarının müdafiəsinin daha da gücləndirilməsinə əsaslanıb. Azərbaycanda da hər zaman qadının ailədə, işdə, həm də cəmiyyətdə layiqli yer tutması dövlətimiz üçün prioritetdir. Bu gün qadınlarımız, gənc qızlarımız sərbəst təhsil alır, peşəkarlıq səviyyələrini artırır, ictimai-siyasi proseslərdə fəal iştirak edirlər.

Qeyd edilib ki, bu il qadınların gender bərabərliyinin təmin olunması, eləcə də onların sülh və təhlükəsizlik prosesində iştirakının təşviq olunması baxımından çox mühüm hadisələrlə zəngindir. Belə ki, Pekin Fəaliyyət Platformasının (1995) qəbul edilməsinin 25-ci ildönümü qeyd olunacaq. Ümummilli Lider Heydər Əliyev böyük uzaqgörənlik göstərərək 1994-cü il sentyabrın 19-da "Qadınların IV Ümumdünya Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" Fərman imzaladı. Ermənistanın hərbi təcavüzü ilə üzləşən, torpaqları işğal olunan, ərazisinin 20 faizini itirən və 1 milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycanın qadınlarının bu konfransda iştirakı çox böyük əhəmiyyət kəsb edirdi. Bu gün qürurla deyə bilərik ki, həmin konfransın iştirakçısı olan qadınların əksəriyyəti rəhbər vəzifələrdə çalışır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Pekin Bəyannaməsi və Fəaliyyət Platforması Davamlı İnkişaf Məqsədlərinə (DİM) çatmaq üçün vacib mərhələdir. Buraya daxil olan strateji istiqamətlər DİM-də ayrıca olaraq 5-ci məqsəddə göstərilib.

Bu ilin oktyabr ayında BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinin 20 illiyinin qeyd olunacağını da diqqətə çatdıran Hicran Hüseynova bu sənədin münaqişələrin həll olunmasında, həmçinin sülh quruculuğunda qadınların mühüm rolunu önə çəkdiyini qeyd edib.

2020-ci ilin gender bərabərliyinin təmin edilməsi, qadın və qızların səlahiyyətlərinin artırılması baxımından vacib bir il olduğunu vurğulayan komitə sədri deyib ki, dövlət qadın siyasətinin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi xüsusi qeyd edilməlidir. Onun təşəbbüsü ilə həyata keçirilən uşaq və qadın hüquqlarının müdafiəsi, aztəminatlı ailələrə dəstək, səhiyyə, elm, təhsil, mədəniyyət, idman, ekologiya və digər sahələrlə bağlı irimiqyaslı layihələr insanların sosial rifahının yaxşılaşmasına müsbət təsirini göstərir. Mehriban xanımın Qarabağ həqiqətlərinin, qaçqın və məcburi köçkünlərimizin vəziyyətinin dünya birliyinə çatdırılmasında çox böyük xidmətləri var.

Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikini oxuyub.

Daha sonra mədəniyyət, təhsil, səhiyyə sahələrində, ölkənin ictimai həyatında səmərəli fəaliyyətlərinə görə Prezidentin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup qadına mükafatlar təqdim olunub.

# Beynəlxalq Qadınlar Günü Hərbi Dəniz Qüvvələrində qeyd edilib



**Martın 6-da Hərbi Dəniz Qüvvələrində Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən birinci dərəcəli kapitan Natiq Bağırov qadınları təbrik edib, vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirən Azərbaycan qadınının ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində də yaxından iştirak etdiyini qeyd edib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və hərbi qulluqçuların ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova xanımları təbrik edib. O, Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə hərbi qulluqçu və mülki işlərdə çalışan qadınlarımızın da əməyinin daim yüksək qiymətləndirildiyini bildirib. Qadın hərbi qulluqçuların və mülki işçilərin bundan sonra da vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklərinə əminliyini ifadə edib. Onlara həm xidmətlərində, həm də şəxsi həyatlarında uğurlar və müvəffəqiyyətlər arzulayıb.

Sonda hərbi hissənin qadın qulluqçularına bayram hədiyyələri və çiçək dəstələri təqdim olunub.

# Qabaqlayıcı tədbirlər səmərə verir

## Nəzarət gücləndirilir

### Hökumətin koronavirusa qarşı apardığı tədbirlər ən yüksək səviyyədə davam edir

*Əvvəli 1-ci səh.*

Ötən gün ərizndə Çində koronavirusdan 30 nəfər ölüb, 1681 nəfər sağalaraq tibb müəssisələrindən evə buraxılıb. Ölkədə koronavirusa yoluxanların ümumi sayı 80552 nəfərə çatıb.

Ötən gün Cənubi Koreyada koronavirusa 518 yeni yoluxma qeydə alınıb. Beləliklə, ölkədə koronavirusa yoluxanların ümumi sayı 6284 nəfərə qədər artıb, ölənlərin sayı isə 42 nəfərə çatıb. 108 koronavirus xəstəsi sağalaraq evə buraxılıb. Hazırda daha 21832 nəfərin analizi aparılır.

İtaliyada koronavirusun yeni növündən ölənlərin sayı 41 nəfər artaraq 148-ə çatıb. Mülki Müdafiə Departamentinin rəhbəri Ancelo Borrelli açıqlamasında deyib ki, ölənlər 66-94 yaş arası insanlardır. Ölkədə ümumilikdə 414 nəfər bu xəstəlikdən sağalıb. 3286 nəfər virusun daşıyıcısıdır. Bu ölkədə koronavirusun yayılmasının episentri Lombardiya və Veneto hesab olunur. Hökumət martın 15-dək ölkədə bütün təhsil müəssisələrinin bağlanmasına qərar verib.

İsveçrədə yeni növ koronavirus infeksiyasına yoluxanların laborator qaydada təsdiqlənmiş sayı 87 nəfərə çatıb. Məlumata görə, İsveçrədə 3 mindən çox insan koronavirus şübhəsi ilə yoxlanılıb və nəticələr neqativ olub. İlk ölüm faktı martın 5-də qeydə alınıb. Ölən şəxsin 74 yaşlı qadın olduğu deyilir.



Fransada 420 nəfərdə koronavirus tapılıb. Bunlardan biri Fransa Milli Assambleyasının deputatı, Fransa-Azərbaycan dostluq qrupunun üzvü, 68 yaşlı Jan-Lük Reitzerdir. O, xəstəxanaya yerləşdirilib. Vəziyyətinin ağır olduğu bildirilir.

Son xəbərlərə əsasən, Fransada virusa yoluxmuş 7 nəfər ölüb. Elzas regionu xəstəliyin yayılmış mərkəzlərindən biridir.

İspaniyada koronavirusdan dördüncü ölüm faktı qeydə alınıb. Valdemoro şəhərində qocalar evində yaşayan qadın virusun növbəti qurbanı olub. Bundan başqa, virus daha 20 nəfərdə aşkar olunub. Onlardan 16-sı sözügedən qocalar evinin işçiləri və sakinləridir. Dörd nəfər reanimasiyaya yerləşdirilib.

Böyük Britaniyada koronavirusa yoluxanların sayı sutka ərzində 30 nəfər artıb. Səhiyyə Nazirliyinin hesablamalarına görə, bununla da ölkədə virusa yoluxanların ümumi sayı 115 nəfərə çatıb. Həkimlər ölkədə 18 mindən çox insanı koronavirusa görə yoxlayıb.

İsraildə 15 nəfər koronavirusa yoluxub. İsrail milli komandasının baş məşqçisi Andreas Herstoq isə koronavirus epidemiyasına görə karantinə alınıb. Millətlər Liqasının Niderlandda keçirilən püşkatma mərasimində iştirak edən Herstoq İsrail Səhiyyə Nazirliyinin koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində 14 gün karantində saxlanılacaq.

Yunanıstan, Kanada, Səudiyyə Ərəbistanı və Sinqapurda koronavirus daşıyıcılarının sayı artıb. Yunanıstanda 21, Kanadada 1, Səudiyyə Ərəbistanında 3, Sinqapurda isə 5 koronavirusa yeni yoluxma faktı təsdiqlənib. Bununla da virusa yoluxma hallarının sayı Yunanıstanda 31, Kanadada 35, Səudiyyə Ərəbistanında 5, Sinqapurda isə 117-yə çatıb.

Xristian dünyasının mərkəzi sayılan Vatikanda koronavirusa ilk yoluxma halı müəyyənləşdirilib.

Kamerunda koronavirusa ilk yoluxma faktı qeydə alınıb. Ölkənin Səhiyyə Nazirliyi açıqlayıb ki, yoluxan şəxs 58 yaşlı fransalıdır. O, Kameruna fevralın 24-də gəlib.

Bu virus daha öncə Afrikanın Əlcəzair, Seneqal, Misir, Mərakeş, Nigeriya və Tunis kimi ölkələrində aşkarlanıb.

Cənubi Asiyada yerləşən Butanda da koronavirusa ilk yoluxma faktı təsdiqlənib. Bunu ölkənin Nazirlər Kabineti açıqlayıb. Virusa yoluxmuş şəxsin 76 yaşlı ABŞ vətəndaşı olduğu bildirilib. O, martın 2-də Butana gəlib.

İranda koronavirusa yoluxanların sayı isə 3513 nəfərə çatıb. Onlardan 107 nəfəri virusdan ölüb, 739-u sağalaraq xəstəxanalardan evə buraxılıb.

İranın Suriyadakı keçmiş səfiri Hüseyn Şeyxülislam da koronavirusun səbəb olduğu xəstəlikdən dünyasını dəyişib. Bildirilir ki, keçmiş səfir xəstəliklə əlaqədar xəstəxanaya yerləşdirilmişdi.

#### Azərbaycanda vəziyyət nəzarət altındadır

Azərbaycanda isə koronavirusa yoluxan şəxslərin sayı 6-dır. Onların səhhəti ciddi nəzarətdə saxlanılır, müalicəsi ilə bağlı zəruri tədbirlər davam etdirilir.

Bundan əvvəl ölkədə koronavirus aşkarlanan şəxslərin sayı üç idi. Ötən gün İrandan Azərbaycana gələn daha üç şəxsdə koronavirus infeksiyasına yoluxma faktı qeydə alındı. Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan bildirilib ki, həmin şəxslərdən biri 1988-ci il təvəllüdlü Almaniya vətəndaşı, digər iki nəfər isə 1994-cü və 1999-cu il təvəllüdlü, İranın Qum şəhərində təhsil alan Azərbaycan vətəndaşlarıdır. Həmin şəxslər xüsusi rejimli xəstəxanaya yerləşdiriliblər: "Hazırda pasiyentlərin vəziyyəti kafidir, hərarətləri normaldır, şikayətləri yoxdur. Onların müalicəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir".

Ölkəmizdə koronavirus infeksiyası ilə bağlı vəziyyət ciddi nəzarət altındadır. Hökumət bu virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirləri ən üst səviyyədə davam etdirir.

Qeyd edək ki, Azərbaycanda karantində olan və xəstəlik aşkarlanan insanların müalicəsi üçün 6 xəstəxana ayrılıb. Beynəlxalq təcrübəyə uyğun olaraq koronavirus infeksiyalarının laborator diaqnostikası üçün xüsusi dövlət tibb müəssisələri müəyyənləşdirilib. Xüsusi ayrılmış tibb müəssisələrindəki laboratoriyalar ÜST-nin müəyyən etdiyi bütün biotəhlükəsizlik və digər keyfiyyət standartlarına tam uyğun qurulub, analizlər yüksək ixtisaslı kadrlar tərəfindən icra olunur, test nəticələrinin düzgünlüyünə xüsusi proqramlarla nəzarət edilir. Nazirlər Kabineti yanında Operativ Qərargah bildirir ki, digər dövlət və qeyri-dövlət tibb müəssisələrində koronavirusun təyini məqsədilə laborator analizlərin aparılması qəti qadağandır. Bu tələbi pozan bütün tibb müəssisələrinə qarşı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görüləcək.

ÜST testlərlə bağlı Avropanın ən yaxşı nəticələri olan iki laboratoriyadan ilkin testləri alıb və bütün ölkələrə göndərib. Azərbaycana artıq 1000 ədəd test göndərilib. Səhiyyə nazirinin müavini Viktor Qasımov açıqlama verib ki, ölkədə koronavirusun müayinəsi üçün kifayət qədər test var: "Lazım olduğu təqdirdə ölkəyə əlavə testlər gətiriləcək".

#### Karantin normalarını pozan şəxsə qarşı qanun çərçivəsində tədbirlər görüləcək

Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlər davam etdirilir. Hazırda bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımdan tədbirlər həyata keçirilir, ictimai məkanlarda dezinfeksiya işləri aparılır və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır.

Nazirlər Kabineti yanında Operativ Qərargahın açıqlamasında bildirilir ki, Azərbaycan ərazisinə keçən şəxslərdə, həmçinin ölkə ərazisindəki vətəndaşlarda virusun əlamətləri aşkarlandıqda onlar təlimata uyğun olaraq, karantinə götürülərək müvafiq xəstəxanalara yerləşdirilir, həmin müddətdə müəyyən testlər və müalicə aparılır: "Təəssüflə bildiririk ki, koronavirus xəstəliyinin əlamətləri olan şəxslər bəzi hallarda həkim briqadalarına qarşı zor tətbiq edir, çağırışa gələn təcili tibbi yardım heyətinə qarşı müqavimət göstərərək həkim nəzarətinə götürülməkdən yayınmağa çalışırlar. Bununla əlaqədar əhaliyə müraciət edərək bildiririk ki, virusun əlaməti aşkarlanan şəxsin həkim nəzarətinə götürülməsi onun müalicəsinin aparılması zərurəti ilə yanaşı, ailə üzvlərinin, ətrafdakı şəxslərin virusa yoluxmaması baxımından vacibdir. Bununla həmin şəxs özü və yaxınlarının səhhətinin qeydinə qalmış, həmçinin virusun ölkə ərazisində yayılmasının qarşısını almış olacaq. Qeyd edirik ki, karantin normalarını pozan, tibbi heyətin normal iş rejiminə mane olan hər bir şəxsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcəkdir. Eyni zamanda vətəndaşlarımıza virusdan qorunmaq üzrə gigiyena təlimatlarına riayət etməyi, insanların kütləvi toplaşdığı məkanlarda olmamağı, ciddi zərurət yaranmadığı halda xarici ölkələrə səfərlərini müvəqqəti ertələməyi tövsiyə edirik".

Naxçıvan Muxtar Respublikasında da tibb personalının fərdi mühafizə vasitələrindən (maskalardan) istifadə etməsi təmin olunub, dərman preparatlarının, dezinfeksiyaedici maddələrin, həmçinin tibb personalı üçün fərdi mühafizə vasitələrinin ehtiyatı yaradılıb.

Hava limanının tibbi heyəti tərəfindən muxtar respublikaya gələnlər arasında xəstəliyə şübhəli bilinən şəxslərdə müayinə və termometriya müşahidəsi təşkil edilib. Xəstəlik müşahidə edilərsə, onların hospitalizasiyası, karantinə alınması və stasionar müalicəyə götürülməsinə şərait yaradılıb. Gömrük-keçid məntəqələrinə yaxın olan səhiyyə müəssisələrində izolyatorlar ayrılıb.

Ümumtəhsil və peşə məktəblərində tədris prosesi mart ayının 4-dən 9-dək dayandırıldığından təhsil müəssisələrində tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlər gücləndirilib. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, onun rayon təşkilatları hazırda bütün təhsil müəssisələrində sanitar-gigiyenik vəziyyəti nəzarətdə saxlayırlar. Bu tədbir uşaq bağçalarında, musiqi məktəblərində, kolleclərdə, ali təhsil müəssisələrində də həyata keçirilir.

Martın 10-dək Naxçıvan Regional Peşə Tədris Mərkəzi, lisey və kolleclər, uşaq bağçaları, musiqi və idman məktəbləri, ali təhsil müəssisələri, avtobus və dəmiryol vağzalları, hava limanı, şəhər məscidləri və mərasim zalları, muzey və kitabxanalar da dezinfeksiya tədbirləri ilə əhatə olunacaq.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələrində koronavirus təhlükəsi ilə əlaqədar məhkumlarla görüş və sovqat qəbulu dayandırılıb. Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov deyib ki, koronavirusa yoluxma təhlükəsinin qarşısının alınması məqsədilə Penitensiar Xidmətin müəssisələrində sanitar-epidemioloji, profilaktik və izahedici tədbirlər həyata keçirilir: "Bununla əlaqədar olaraq Penitensiar Xidmətin müəssisələrində saxlanılan şəxslərə görüş verilməsi və sovqat qəbulu dayandırılıb".

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "COVİD-19" infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirləri davam etdirir.

Dövlət Dəniz Agentliyinin mütəxəssisləri liman rəhbərliyi ilə birgə tədbirlər həyata keçirməkdədir. Koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə hazırda respublikanın bütün limanlarına xarici bayraq altında üzən gəmilərin giriş-çıxışı və limanlarda yük aşırmaları əməliyyatı Beynəlxalq Dəniz Təşkilatının və Ümumdünya Səhiyyə Təşkilatının müvafiq tövsiyələrinə uyğun olaraq aparılır.

Bakının ictimai nəqliyyat sistemində əks-epidemik tədbirlər və əhali arasında sanitariya maarifləndirmə işləri çərçivəsində "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Bakı Nəqliyyat Agentliyi (BNA) aksiya keçirib. Nəqliyyat könüllüləri mərkəzin ərazisində sərnişinlərə TƏBİB-in hazırladığı broşürlər paylayıb. Broşürdə respirator virus infeksiyalardan qorunmaq üçün və gigiyenik qaydalara əməl edilməsinə dair zəruri maarifləndirici məlumatlar əks olunub. Könüllülər gözləmə zallarındakı kitab rəflərinə də maarifləndirici broşürlər qoyublar. Eyni zamanda hava limanı ekspres avtobuslarında TƏBİB tərəfindən hazırlanmış kliniki sağlam olan, lakin COVID - 19 virus xəstəliyi yayılmış ölkələrə səyahət etmiş şəxslər üçün tövsiyələr əks olunan bukletlər paylanılıb.

TƏBİB koronavirus xəstəliyi yayılmış ölkələrə səyahət etmiş şəxslər üçün tövsiyələr də verib: "Koronavirus xəstəliyi rəsmi olaraq qeydə alınmış ölkələrə səyahət etmiş şəxslərin üzərində müşahidələrin aparılması son təmasdan sonrakı 14 gün ərzində nəzərdə tutulur. Müşahidə müddətində mümkün qədər evinizi tərk etməyin, insanların sıx toplandığı yerlərə getməyin, şəxsi gigiyena qaydalarına ciddi riayət edin. Tez-tez əllərinizi su və sabunla 20 saniyə ərzində yuyun. İstifadə etdiyiniz dəsmaldan ailə üzvlərinizin istifadə etməsinə yol verməyin. Respirator xəstəlik əlamətləri hiss etdiyiniz halda dərhal 104 (Bakı daxili) və ya 113 (Bakıdan kənar) Təcili yardım nömrələrinə zəng edin və həkim müayinəsindən keçin".

#### Həkimə getmədən də sağalmaq mümkündür

Məlumat üçün bildirək ki, koronavirusa yoluxmuş şəxslərin 81 faizi bu xəstəliyi çox yüngül keçirir. Bəzən həkimə də getmədən sağalmaq mümkündür. Cəmi 4-5 faiz xəstələrdə ağırlaşma halı olur və onların xəstəxana şəraitində müalicə almasına ehtiyac yaranır. Bu virus 65 yaşdan yuxarı olanlar üçün daha risklidir.

Əsas simptomlar aşağı hərarət və çox az öskürəkdir. Koronavirusun spesifik müalicəsi, virusu birbaşa yox edən dərman vasitəsi hələ ki yoxdur. Çünki bu, yeni virusdur, bütün dünyada onunla davranma yolu müəyyən edilməyib. Narahatlıq yaradan daha çox koronavirusun insanlara təsiri yox, onun geniş yayılma miqyasıdır. Çin hökumətinin 11 milyonluq şəhəri karantinə alması yoluxma sayının azalmasına səbəb oldu. Ölkələrin karantin və qabaqlayıcı tədbirlər görməsi, sərhədləri, məktəbləri bağlaması, tədbirlərin təxirə salınması bu təcrübədən qaynaqlandı. Yəni ciddi təşvişə səbəb yoxdur, lakin ehtiyatı da əldən vermək olmaz. Bəs nə etmək lazımdır?

Qapalı məkanlarda yoluxma ehtimalı daha çoxdur. Xəstəliyin ötürülməsində ciddi olan insanların bir-birinə nə qədər yaxın məsafədə dayanması, xəstə olan insanın öskürdüyü zaman nə qədər insanı yoluxdurmasıdır. Xəstəlik bir çox hallarda öskürən və ya asqıran insanlar vasitəsilə yayılır. Açıq havada insanların 1 metrdən aralı məsafədə dayandıqları hallarda yoluxma riski çox azdır. Odur ki:

- *xəstə olanlar səyahətə çıxmamalı, başqa yerlərə, ölkələrə xəstəliyi aparmaqdan çəkinməlidirlər;*
- *insanlar ümumi gigiyena qaydalarına ciddi riayət etməlidirlər;*
- *mütləq olaraq əllər tez-tez sabunla yuyulmalıdır;*
- *sabun və su olmazsa, əllər spirtlə dezinfeksiya olunmalıdır;*
- *əllərlə ağıza və gözə toxunmama adətinə öyrəşmək lazımdır;*
- *xəstələrə çölə çıxmaq lazım deyil;*
- *hərarət, öskürək, əzələ ağrıları müşahidə edildikdə, evdə qalmaq lazımdır;*
- *əgər ölkədə əhali arasında xəstəlik aşkarlansa, 60-65 və yuxarı yaşda olanlar daha çox evdə qalmalıdırlar;*
- *əhalinin sıx olduğu yerlərə getməkdən çəkinmək lazımdır.*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Koronavirusun yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlər davam etdirilir

**Azərbaycanda koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlər davam etdirilir.**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, hazırda bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımdan tədbirlər həyata keçirilir, ictimai məkanlarda dezinfeksiya işləri aparılır və Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır.

Qeyd edək ki, Azərbaycan ərazisinə keçən şəxslər, həmçinin ölkə ərazisindəki vətəndaşlarda virusun əlamətləri aşkarlandıqda təlimata uyğun olaraq, karantinə götürülərək müvafiq xəstəxanalara yerləşdirilir, həmin müddətdə müəyyən testlər və müalicə aparılır.

Qərargahın məlumatında deyilir: "Təəssüflə bildiririk ki, koronavirus xəstəliyinin əlamətləri olan şəxslər bəzi hallarda həkim briqadalarına qarşı zor tətbiq edir, çağırışa gələn təcili tibbi yardım heyətinə qarşı müqavimət göstərərək həkim nəzarətinə götürülməkdən yayınmağa çalışır.

Bununla əlaqədar əhaliyə müraciət edərək bildiririk ki, virusun əlaməti aşkarlanan şəxsin həkim nəzarətinə götürülməsi onun müalicəsinin aparılması zərurəti ilə yanaşı, ailə üzvlərinin, ətrafdakı şəxslərin virusa yoluxmaması baxımından vacibdir. Bununla həmin şəxs özü və yaxınlarının səhhətinin qeydinə qalmış, həmçinin virusun ölkə ərazisində yayılmasının qarşısını almış olacaq.

Qeyd edirik ki, karantin normalarını pozan, tibbi heyətin normal iş rejiminə mane olan hər bir şəxsə qarşı qanunun tələblərinə uyğun şəkildə tədbirlər görüləcək. Eyni zamanda vətəndaşlarımıza virusdan qorunmaq üzrə gigiyena təlimatlarına riayət etməyi, insanların kütləvi toplaşdığı məkanlarda olmamağı, ciddi zərurət yaranmadığı halda xarici ölkələrə səfərlərini müvəqqəti ertələməyi tövsiyə edirik".

***AZƏRTAC***

## Azərbaycana daxil olan yük nəqliyyat vasitələrinin polis əməkdaşlarının müşayiəti ilə hərəkəti təmin edilir

Azərbaycan Respublikası ilə qonşu olan ölkələrdə koronavirusa yoluxma hallarının artmasından sonra dövlət başçısı İlham Əliyevin müvafiq tapşırığına əsasən həmin ölkələrdən, o cümlədən İran İslam Respublikasından Azərbaycana daxil olan yük nəqliyyat vasitələrinin polis əməkdaşlarının müşayiəti ilə hərəkəti təmin edilir.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ərazisindən tranzit yüklərin daşınması üzərində nəzarət gücləndirildiyi üçün nəqliyyat vasitələri ölkə sərhədlərini tərk edənə qədər onların təhlükəsizliyi təmin edilir və yalnız müəyyən edilmiş məntəqələrdə sürücülərin avtomobillərdən düşərək istirahət etməsinə icazə verilir. İstirahət yerlərində sürücülər Daxili İşlər Nazirliyinin hesabına isti yeməklə təmin olunur. Bu yerlərdə sürücülərin ibadətlə məşğul olmaları və tibbi müayinədən keçmələri üçün xüsusi otaqlar da ayrılıb.

Sürücülər qeyd olunan yerlərdə istirahət etdikdən sonra onlar yol polisinin müşayiəti ilə yollarını davam etdirirlər. Onların yolboyu yerli vətəndaşlarla ünsiyyətdə olması və marşrutdan kənar yerlərdə nəqliyyat vasitələrini saxlamasına isə ekstremal vəziyyətlər istisna olmaqla icazə verilmir.

## İnstitutda koronavirusa qarşı intensiv tədbirlər görülür

Azərbaycan İlahiyyat İnstitutunda koronavirus (COVİD - 19) infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.

Nazirlər Kabinetinin Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması barədə verdiyi sərəncama əsasən, institutda tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilib.

Belə ki, ali təhsil müəssisəsinin auditoriyaları, kitabxanası, dəhlizləri və digər ərazilərində dezinfeksiya işləri aparılıb.

Eyni zamanda 2020-ci ilin mart ayının 3-dən 9-dək bütün təhsil müəssisələrində olduğu kimi, Aİİ-də də tədris, təlim-tərbiyə prosesi dayandırılıb.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



## TƏBİB və Bakı Nəqliyyat Agentliyi aksiya keçiriblər

Paytaxtın ictimai nəqliyyat sistemində əksepidemik tədbirlər və əhali arasında sanitariya maarifləndirmə işləri çərçivəsində "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Bakı Nəqliyyat Agentliyi (BNA) aksiya keçiriblər.

Bu barədə AZƏRTAC-a TƏBİB-in mətbuat xidmətindən bildirilib.




Məlumata görə, nəqliyyat könüllüləri tərəfindən mərkəzin ərazisində sərnişinlərə TƏBİB-in hazırladığı broşürlər paylanılıb. Broşürdə respirator virus infeksiyalarından qorunmaq, gigiyenik qaydalara əməl edilməsinə dair zəruri maarifləndirici məlumatlar əks olunub. Könüllülər gözləmə zallarındakı kitab rəflərinə də maarifləndirici broşürlər yerləşdiriblər.

Eyni zamanda Hava Limanı ekspres avtobuslarında TƏBİB tərəfindən hazırlanmış kliniki sağlam olan, lakin COVID-19 virus xəstəliyi yayılmış ölkələrə səyahət etmiş şəxslər üçün tövsiyələr əks olunan bukletlər paylanılıb.

## Dünya Səhiyyə Təşkilatı və Dünya Bankı koronavirusa qarşı mübarizədə ölkələrə yardım göstərəcəklər

Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru Tedros Adhanom Gebreyesus koronavirus epidemiyasına qarşı mübarizədə hökumətləri müvafiq nazirliklərlə sıx əməkdaşlıq şəraitində çalışmağa çağırıb.

AZƏRTAC xəbər verir ki, Cenevrədə keçirilən mətbuat konfransında DST rəhbəri Dünya Bankı ilə birlikdə bütün ölkələri bu istiqamətdə hazırlıqlara dəstək göstərəcəklərini vəd edib. O bildirib ki, virusun nə dərəcədə təhlükəli olması və nə qədər insan tələfatı ilə nəticələnməsi ayrı-ayrı ölkələrin infeksiyanı vaxtında aşkarlama, pasiyentləri karantinə alma və digər ehtiyat tədbirlərini həyata keçirmək gücündən asılıdır.

Təşkilat rəhbəri eyni zamanda Çinin və bir sıra digər ölkələrin koronavirusla mübarizədəki səylərini də yüksək qiymətləndirib. Bildirilib ki, bu ölkələrin təcrübəsi xəstəliyin yayılmasının dayandırıla biləcəyini göstərir. Buna görə də Tedros Adhanom Gebreyesus bütün dünyanı əhatə edən pandemiya təhlükəsi olmadığını və bu epidemiyanın qarşısının alınmasının mümkünlüyünü ifadə edib: "İndi təslim olmaq və ya bəhanələr məqamı deyil. İndi bütün qüvvələri səfərbər etmək məqamıdır".

DST rəhbəri koronavirusla mübarizədə mətbuatın roluna da toxunub və həqiqətləri yayan media qurumlarına təşəkkür edib. O bildirib ki, şayiələr və yalan məlumatlara qarşı mübarizə epidemiyaya qarşı mübarizənin olduqca mühüm tərkib hissəsidir.





# Mədəniyyət





● "Azərnəşr" - 100

## Şərqdə ilk dövlət nəşriyyatı

**1920-ci ilə qədər Azərbaycanda özəl, habelə müxtəlif şirkətlərə məxsus nəşriyyat və mətbəələr fəaliyyət göstərirdi. Onların hər birinin Azərbaycanda kitab nəşrinin inkişafında və kitab mədəniyyətinin zənginləşməsində böyük xidmətləri olmuşdur. O zaman ilk dərsliklərin və kitabların çoxu məşhur Orucov qardaşlarının mətbəəsində işıq üzü görmüşdür.**



1920-ci ildə Azərbaycanda sovet hökuməti qurulduqdan sonra həyatın digər sahələrində olduğu kimi, kitab nəşrində də böyük dönüş yarandı. Mövcud nəşriyyat və mətbəələr milliləşdirildi. Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən 1920-ci il mayın 8-də "bütün mətbəələrin, kağız ehtiyatlarının və mətbuat vasitələrinin milliləşdirilməsi haqqında" dekret qəbul edildi. Bu dekretlə Azərbaycandakı mətbəə və verilmişdi. Respublikadakı bütün idarə və təşkilatlara ayrılmış kağız ehtiyatları və pul vəsaitləri "Azərnəşr"ə qaytarılmışdı. Dekretin beşinci bəndinə əsasən, "Azərnəşr"in nəşr etdiyi kitablar xalqa pulsuz paylanırdı. Bunun həmin dövrdə çox böyük önəmi var idi. Çünki elmsiz inkişaf mümkün deyildi. İlk növbədə bütün sahələr üzrə kadr potensialı yetişdirmək lazım idi. Kadr hazırlığının da yeganə yolu təhsildən ke-

nəşriyyatlar kağız ehtiyatları və avadanlıqları ilə birlikdə dövlətin tabeliyinə keçirildi.

1920-ci il aprel çevrilişindən sonra həyatın sürətlə dəyişməsi Azərbaycanda kitaba və mətbuata tələbatı artırmışdı, insanların oxumağa marağı güclənmişdi. Amma nəşriyyat və mətbəələr bu tələbatı ödəmək iqtidarında deyildi. Ona görə də güclü maddi-texniki bazası və peşəkar kadr potensialı olan dövlət nəşriyyatının yaranması zərurəti qarşıya çıxmışdı. Bu, həm də N.Nərimanovun kitaba və nəşriyyata münasibətinin təcəssümü idi.

1920-ci il aprelin 28-də cəmi iyirmi üç ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti XI Ordu tərəfindən süquta uğradıldı, yerində Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Bu zaman dövlət nəşriyyatının yaranması da N.Nərimanovun nəzərində digər qurumlar qədər vacib iş hesab olunurdu. Bunu nəzərə alaraq N.Nərimanov 1920-ci il iyun ayının 9-da 40 saylı dekret imzaladı və Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr" fəaliyyətə başladı. Bu nəşriyyat təkcə Azərbaycanda deyil, bütün Şərqdə ilk dövlət nəşriyyatı idi. Bu nəşriyyata geniş səlahiyyətlər çirdi. Odur ki, kitabların xalqa pulsuz çatdırılması təhsilin genişləndirilməsinə və xalqın savadlanmasına xidmət edirdi. "Azərnəşr"in yarandığı ilk illərdə daha çox dərslik nəşr etməsi bu ehtiyacların yetərincə ödənilməsi ilə bağlı idi.

"Azərnəşr" dekretin altıncı bəndinə əsasən kollegial idarə edilirdi. Bu idarəetmə eyni vaxtda üç nəfərə tapşırılmışdı. Nəşriyyatın ilk direktorlarından biri yazıçı Məmməd Səid Ordubadi olmuşdur.

Dekretin və qərarın həm adında, həm də mətnində bir neçə dəfə "Dövlət nəşriyyatı" ifadəsinin işlənməsi "Azərmərkəzimətbuat"ın bugünkü "Azərnəşr" olduğunu təsdiqləyir. Bundan başqa, 1920-ci ildə həmin nəşriyyatın buraxdığı kitabların titul səhifələrində "Azərbaycan Şura Dövlət Nəşriyyatı" sözləri yazılmışdır. Onlara nümunə olaraq tanınmış Azərbaycan yazıçısı Abdulla Şaiqin "Ədəbiyyat dərsliyi" və L.N.Tolstoyun "Hekayələr" kitablarını göstərmək olar.

Sonrakı dövrlərdə "Azərnəşr" haqqında bir neçə dekret, qərar, sərəncam və s. qəbul edilmişdir. Həmin sənədlərin mətni ilə tanışlıqdan aydın görünür ki, dövlət rəhbərləri "Azərnəşr"in fəaliyyətini həmişə diqqət mərkəzində saxlamışlar. Onun yenidən təşkili, maddi-texniki bazasının gücləndirilməsi, digər nəşriyyatların ona birləşdirilməsi, kadr hazırlığı, onların işlə təmin edilməsi və s. məsələlərlə bağlı bir-birinin ardınca çoxsaylı dekret, qərar və sərəncamların verilməsi məhz bu qayğı və diqqətdən irəli gəlmişdir.

1922-ci il aprelin 28-də Azərbaycanda sovet hökumətinin qurulmasının 2-ci ildönümü günündə çağırılmış qurultayda təkcə Dövlət Nəşriyyatının fəaliyyətinin gücləndirilməsi deyil, hətta türk dilində kitabların, həmçinin dərslik və dərs vəsaitlərinin nəşri geniş müzakirə edilmiş, bu məsələlər qurultayın qərarlarında da öz əksini tapmışdır. Qurultayın qərarında deyilirdi: "Nəşriyyat işinə xüsusi fikir vermək lazımdır. Türk dilində kitab, kitabça və dərsliklərin nəşri ön plana çəkilməlidir". Bunlar aydın göstərir ki, N.Nərimanovun rəhbərliyi dövründə Azərbaycan xalqının savadlanması, elmin və təhsilin inkişafı həmişə ön planda olmuşdur. Türk dilində kitab nəşrinin genişləndirilməsi isə kitab yazan milli kadrların yetişdirilməsini tələb edirdi. Bizim milli dərsliklərimizi ancaq milli müəlliflər yaza bilərdi. Ona görə N.Nərimanov bu işə xüsusi önəm vermişdi. Onun hələ 1899-cu ildə "Müəllimsiz türk dilini öyrənməkdən ötrü ruslar üçün asan kitabça"sı nəşr olunmuşdu. O, öz millətinin savadlanmağı ilə yanaşı, istəyirdi ki, Azərbaycanda yaşayan ruslar da türk dilini yaxşı öyrənsinlər.

"Azərnəşr"in maddi-texniki bazasının gücləndirilməsi, həmçinin poliqrafiya maşın və avadanlıqları ilə təchizatının yaxşılaşdırılması məqsədilə Ruhulla Axundov 1925-ci ildə Azərbaycan hökuməti tərəfindən Nyu York, Paris, Berlin və Drezden şəhərlərinə ezam edilmişdi. "Azərnəşr"in poliqrafiya bazasının yaxşılaşdırılması nəşriyyatın yaradıldığı ilk günlərdən dövlətin və hökumətin diqqət mərkəzində olmuşdu. "Azərnəşr"in yaranması haqqında verilmiş 9 iyun 1920-ci il tarixli dekretdən cəmi 20 gün sonra N.Nərimanov "Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasının yaradılması və şuranın yanında poliqrafiya bazasının təşkil edilməsi" haqqında Azərbaycan İnqilab Komitəsinin 29 iyun 1920-ci il tarixli dekretini imzalamışdır. Bu dekret "Azərnəşr"in poliqrafiya bazasının möhkəmləndirilməsində böyük rol oynamışdır.

Digər sahələrdə olduğu kimi, nəşriyyat və poliqrafiya işində də mütəxəssis olmadan irəliləyiş mümkün deyildi. Odur ki, "Azərnəşr" yarandığı gündən onun kadrlarla təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır. Azərbaycan İnqilab Komitəsinin Nəşriyyat şöbəsinin və Dövlət Nəşriyyatı "Azərmərkəzimətbuat"ın yaranması haqqında" dekretinin N.Nərimanov tərəfindən imzalandığı günün səhərisi - 10 iyun 1920-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı respublikada yaşayan və başqa işlərdə çalışan bütün milli poliqrafiya mütəxəssislərinin siyahiya alınmasına dair əmr verdi. Onlar poliqrafiya sahəsində işə cəlb edildilər. Eyni zamanda gənc poliqrafiya kadrlarının hazırlığına başlanıldı. Hətta qısa vaxtda Azərbaycanda Poliqrafiya İşçiləri İttifaqı yaradıldı, 1921-ci il mart ayının 15-də həmin ittifaqın qurultayı çağırıldı. Qurultayda mövcud mətbəələrin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə poliqrafçı kadrlarının hazırlanması birinci dərəcəli məsələ kimi qarşıya qoyulmuşdu. Qurultayda artıq Bakıda poliqrafiya kursunun açıldığı və burada 49 nəfər azərbaycanlı mürəttibin hazırlandığı barədə məlumat verilmişdi.

Azərbaycan hökumətinin 9 sentyabr 1923-cü il tarixli qərarı ilə Azərbaycan Dövlət Nəşriyyatı yenidən təşkil edilmişdir. 14 sentyabr 1924-cü ildə Azərbaycan Respublikasının Ali İqtisadi Şurası Azərbaycan Dövlət Nəşriyyatının Nizamnaməsini təsdiq etmişdir. Həmin Nizamnaməyə əsasən, mətbəə, cildxana, mərkəzi kitab anbarı, mərkəzi kitab mağazası, musiqi not mağazası, hətta musiqi alətləri emalatxanası da Azərbaycan Dövlət Nəşriyyatının tabeliyinə daxil edilmişdir. Bütün dekret, sərəncam, qərar və əmrlərin təhlili, habelə mətnlərinin müqayisəsi göstərir ki, Azərbaycan Dövlət Nəşriyyatı "Azərnəşr" Azərbaycan İnqilab Komitəsinin 9 iyun 1920-ci il tarixli dekreti ilə yaradılmışdır. Bu tarix "Azərnəşr"in doğum günüdür.

*İslam SADIQ,*
*"Azərnəşr"in böyük redaktoru,*
*filologiya elmləri doktoru*

● Muzeylərimiz

## Ən kiçik sakini ilə tanınan ev

**Xızıda bir ev var. Xızılı Qafar kişinin bu halal ocağı 1956-cı ildə ev-muzeyinə çevrilib. Çünki 1899-cu ilin 20 martında, təbiətin xoş çağlarında, Novruz bayramında burada bir dahi dünyaya gəlib. Körpə varlığıyla valideynlərinə böyük sevinc bəxş edib.**





Ancaq onsuz da yoxsulluq içində yaşayan ata-anasını həm də qayğılandırıb. Onların Cəfər adını verdikləri bu uşaqdan başqa üç oğulları da vardı. Qafar kişi odun qırıb, kömür hazırlayıb satmaqla ailəsini dolandırırdı. Qazancı çox olmasa da, həyatından gileyli deyildi. Bir gün odun qırarkən görmə qabiliyyətini itirir. Qafar kişi bundan sonra çox yaşamır. Onun vəfatından sonra ailəsinin vəziyyəti daha da ağırlaşır.

1903-cü ildə kasıbçılıq onları Xızıdan Bakıya gətirib. Sakinlərinin köçüb getməsi ilə ata evi kimsəsizləşib. Ailənin günü-rüzigarı Bakıda da xoş keçməyib. Övladlarını çətinliklər içərisində böyüdən Şahbikə ana onlardan heç olmasa kiçiyinin, Cəfərin təhsil almasını arzulayıb. Əziyyət çəkərək onu oxudub.

Hələ məktəb illərində Cəfər Cabbarlının istedadı günəş kimi parlayıb. Onun qabiliyyəti, yaradıcılığa marağı bir sahə ilə məhdudlaşmayıb. Dramaturq, şair, nasir, teatrşünas, kinoşünas, tərcüməçi, kinossenarist, jurnalist, rejissor, Əməkdar incəsənət xadimi, Azərbaycan xalqının qürur duyduğu, fəxr etdiyi şəxsiyyətlərdən biri kimi tanınıb.

Onun adı hər zaman böyük ehtiramla çəkilir, xatirəsi əbədiləşdirilir. Cəmi üç il yaşadığı Xızıdakı ata ocağı da həyat yoldaşı Sona xanım Cabbarlının təşəbbüsü ilə 1956-cı ildən muzey kimi fəaliyyətə başlayıb. On üç ildən sonra isə rəsmi muzey statusu alıb. Cəfər Cabbarlının qısa - cəmi otuz beş il sürən ömür yolu Bakıdan 110 kilometr uzaqlıqda yerləşən bu evdən başlayıb. Kömürçü Qafar kişinin oğlu kasıb komanı tarixə çevirib.

Muzeyin ümumi sahəsi 30 kvadratmetrdir. Şüşəbəndlə mühafizə edilən birmərtəbəli ev iki otaqdan və bir dəhlizdən ibarətdir.

Sovet dövründə Azərbaycanın bir çox görkəmli, millətsevər şəxsiyyətləri kimi Cəfər Cabbarlıya da münasibət ziddiyyətli olub. Onun istedadını, Azərbaycan ədəbiyyatı, teatrı və kinosunun inkişafında xidmətlərini danmaq mümkünsüzdü. Sovet hakimiyyəti illərində böyük Cəfər Cabbarlının Azərbaycanın azadlığı və müstəqilliyi yolunda əməlləri unudulmasa da, istedadı və gördüyü işlər etiraf olundu. Onu sovet dramaturgiyasının banisi kimi təqdim etdilər. Xızıdakı ev-muzeyi də SSRİ dövründə diqqətdən kənarda qalmadı. Ancaq illər də öz təsirini göstərdi. Zaman keçdikcə görkəmli dramaturqun ev-muzeyi sökülüb-tökülməyə başladı.

1999-cu ildə böyük dramaturq, şair, yazıçı, milli mübariz Cəfər Cabbarlının 100 illiyinin qeyd edilməsi ilə əlaqədar ev-muzeyində yenidənqurma işləri həyata keçirildi, ətrafına qoruyucu şüşəbənd çəkildi. Həmin il Xızı şəhərinin mərkəzində Cəfər Cabbarlının möhtəşəm heykəli ucaldıldı.

Qeyd edək ki, Cəfər Cabbarlının Xızıdakı ev-muzeyində 520 eksponat saxlanılır. Həmin eksponatların əsasını Cabbarlının ailəsinin məişətdə işlətdiyi əşyalar, yazıçının kitabları, səhnəyə qoyulan əsərlərindən fotoşəkillər, arxiv sənədləri və müxtəlif mətbuat orqanlarında çap edilən məqalələri təşkil edir. Bu eksponatların hər birinin dəyərini nəzərə alsaq, qorunmasının vacibliyi daha da aydın olar. Ancaq uzun illər idi ki, bu mədəniyyət ocağı qəzalı vəziyyətdə idi. Evin damı yağışlı, qarlı günlərdə damırdı. Halbuki Azərbaycanın füsunkar təbiətli, bənzərsiz Xızısında, görkəmli şəxsiyyətin dünyaya gəldiyi ev yalnız azərbaycanlılar üçün yox, həm də ölkəmizə gələn xarici turistlər, ədəbiyyatsevərlər üçün də cəlbedicidir.

Cəfər Cabbarlının Xızıda fəaliyyət göstərən ev-muzeyinin əsaslı təmir-bərpa olunmasına zəruri ehtiyac yarandığı nəzərə alınıb. Ötən ilin sentyabr ayının əvvəlindən təmir-bərpa işlərinə başlanılıb. Tikinti işləri zamanı zərər görməməsi üçün qoruyucu şüşəbəndin içərisində yerləşən evin üzəri örtüklə bağlanıb. Həyata keçirilən işlər zamanı görkəmli dramaturqun yaşadığı evin özündə dəyişiklik edilməyib. Hazırlanmış layihə çərçivəsində qoruyucu şüşəbənd daha müasir formada tikilib, muzeyin həyətində yeni inzibati otaqlar inşa olunub, istilik, işıqlandırma və təhlükəsizlik sistemi qurulub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Ziyalı qadınlarımız

## Pedaqoq, maarifçi, musiqişünas

### Dahi bəstəkarın həyat yoldaşı Məleykə xanım Hacıbəyovanın bioqrafiyasından bəzi qeydlər



**Milli musiqimizin banisi Üzeyir Hacıbəylinin həyat yoldaşı Məleykə Həsənağa qızı Hacıbəyovanın (Terequlovanın) həyat və fəaliyyəti haqqında insanlar məhdud məlumata malikdirlər. Bunun müəyyən obyektiv səbəbləri də var.**



Həmin səbəblərdən biri əvvəlki dövrlərdə bir çox kütləvi nəşrlərdə, o cümlədən ensiklopediyalarda Məleykə xanım Hacıbəyova haqqında hər hansı bir məlumatın dərc edilməməsidir. Halbuki M.Hacıbəyova pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakıda fəaliyyət göstərmiş ayrı-ayrı rus-tatar məktəblərinə müsəlman qız uşaqlarının təhsilə cəlb edilməsi, onlara savad öyrədilməsi işində yaxından iştirak etmişdir.

M.Hacıbəyova 1887-ci il dekabrın 22-də anadan olmuşdur. O, məşhur Terequlovlar nəslindəndir, müsəlmandır. Evdə təhsil alıb, Tiflisdəki Knyaginya Olqa Fyodorovnanın adını daşıyan Birinci Qadın Gimnaziyasının 4 sinfini bitirmişdir. 1908-ci ildə Bakı Şəhər İdarəsinin məktəb komissiyasına ərizə ilə müraciət edərək ona müsəlman qızları üçün açılmış məktəblərin birində müəllimə yerinin verilməsini xahiş etmişdir. Lakin həmin il işlə təmin edilməmişdir. Məleykə xanım 1909-cu il dekabrın 20-də Üzeyir bəy Hacıbəyli nikaha girərək ailə həyatı qurmuş və onun soyadını qəbul etmişdir.

M.Hacıbəyova 1910-cu il sentyabrın 6-da Bakı Şəhər İdarəsi nəzdindəki məktəb komissiyasına yenidən ərizə ilə müraciət etmişdir. Həmin ilin oktyabrında Bakı Şəhər Duması nəzdindəki məktəb komissiyasının iclasında şəhərin azərbaycanlı məktəblərinə müəllim və müəllimələrin təyin edilməsi məsələsinə baxılmışdır. İclasda, o cümlədən Məleykə xanım Hacıbəyovanın (Terequlovanın) 10-cu rus-tatar məktəbinə Azərbaycan dili müəlliməsi təyin edilməsi haqqında qərar qəbul edilmişdir.

Məktəbin müdiri F.Tambiyev Məleykə xanım Hacıbəyovaya 1209 saylı məktub göndərək bildirirdi ki, o, Bakı Şəhər Duması nəzdindəki məktəb komissiyasının oktyabrın 8-də keçirilmiş iclasında 10-cu rus-tatar məktəbinə tatar (Azərbaycan) dili müəllimi vəzifəsinə seçilmişdir. Məktubda xahiş edilirdi ki, Məleykə xanım oktyabrın 16-dan etibarən vəzifəsinin icrasına başlasın.

Bakı-Dağıstan xalq məktəbləri direksiyasının rəhbəri A.X.Txorjevskinin Bakı Şəhər Duması nəzdindəki məktəb komissiyasının sədrinə 1911-ci il aprelin 21-də ünvanladığı məktubda isə bildirilirdi ki, onun tərəfindən 1911-ci il aprel ayının 1-dən etibarən bir neçə müəllim və müəllimələr, o cümlədən Məleykə xanım Hacıbəyova (Terequlova) Kazan məktəbi ilə qarışıq olan rus-tatar məktəbinə Azərbaycan dili müəlliməsi vəzifəsinə təsdiq edilmişdir. Eyni məzmunlu məktub 1911-ci il aprelin 21-də Bakı-Dağıstan xalq məktəbləri direksiyasının 2-ci rayonu üzrə müfəttişi S.M.Qənizadə tərəfindən də Bakı Şəhər Duması nəzdindəki məktəb komissiyasının sədrinə göndərilmişdi.

Arxiv sənədlərində olan məlumata əsaslanaraq qeyd edirik ki, həmin dövrdə Məleykə xanım Hacıbəyovanın sağlamlığında müəyyən problemlər yaranmışdır. Onun müalicə aldığı tibb müəssisəsinin 1912-ci ilin yanvarın 19-da təqdim etdiyi arayışda bildirilirdi ki, Məleykə xanım keçirdiyi xəstəlikdən sağalanadək dərslərə gələ bilməyəcəkdir. Bu vəziyyət bir neçə dəfə təkrar olunmuşdur.

1912-ci ilin sentyabrında M.Hacıbəyovanın məktəb komissiyasının sədrinə yazdığı ərizəsində qeyd edilirdi ki, artıq bir ildir mən qadın xəstəliyindən əziyyət çəkirəm və həmin müddət ərzində buradakı həkimlərin - şəhər doğum evinin direktoru Şahnazarova və Radionovanın yanında müalicə olunuram: "...Şübhəsiz ki, mənim müalicəm baha başa gəlir və yeni qaçılmaz xərclər tələb edirdi. Maddi vəziyyətim çox ağır olduğuna görə müalicəm üçün şəhər büdcəsindən mənə birdəfəlik yardımın göstərilməsi haqqında məktəb komissiyasına ərizə verməyinizi sizdən xahiş edirəm. Ümid edirəm ki, məktəb komissiyası mənim şəhərə göstərdiyim xidməti və vəziyyətimi nəzərə alaraq yardım göstərilməsinə etiraz etməyəcəkdir". Beləliklə, 7-ci (əvvəlki 10-cu) rus-tatar məktəbinin müəllimi Məleykə xanım Hacıbəyova 1912-ci il oktyabrın 1-dən etibarən məktəb xidmətini tərk etmişdir.

Məktəb komissiyası Məleykə xanım Hacıbəyovanın həqiqətən də müalicəyə ehtiyacının olduğunu qəbul etmiş və iki illik (16 oktyabr 1910-cu ildən 25 sentyabr 1912-ci ilədək) xidmətini nəzərə alaraq ona iki aylıq məvacib - 150 rubl həcmində vəsaitin ayrılması haqqında qərar qəbul etmişdir.

1914-cü il avqustun 11-də 7-ci rus-tatar məktəbinin keçmiş müəllimi Məleykə xanım Hacıbəyova məktəb komissiyasının sədrinə yenidən ərizə ilə müraciət edərək ona rus-tatar məktəbində müəllim yerinin verilməsini xahiş etmişdi. Müdir F.Tambiyev 1914-cü il sentyabrın 29-da məktəb komissiyasının sədrinə məktub göndərərək bildirirdi ki, hazırda Məleykə xanım xəstə olan Sabirə xanım Əbdürəhmanı müvəqqəti olaraq əvəz edərək 7-ci rus-tatar məktəbində çalışır. 1914-cü ilin noyabrında M.Hacıbəyova 8-ci rus-tatar məktəbinə keçirilir.

1915-ci ildə o, yenidən 7-ci rus-tatar məktəbində müəllim vəzifəsinə təyin edilir.

1915-ci il dekabrın 2-də Bakı Şəhər İdarəsinin məktəb komissiyası sədrinin Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəblərinin 2-ci rayonu üzrə müfəttişi S.M.Qəniyevə ünvanladığı 1802 saylı məktubda qeyd edilirdi: "Sabunçu məktəbinə keçirilmiş müəllim Məmmədovun yerinə Məleykə xanım Terequlovanın dekabrın 3-dən etibarən 4-cü rus-tatar məktəbində müvəqqəti olaraq dərs deməsinə icazə verməyinizi xahiş edirəm". Arxiv sənədlərindəki bəzi məlumatlara görə, Məleykə xanım 1920-ci ilin mart ayınadək həmin məktəbdə pedaqoji fəaliyyətini davam etdirmişdir.

Beləliklə, Məleykə xanım pedaqoji sahədə layiqincə çalışmış və müsəlman qadınlar arasında təhsilin yayılmasında yaxından iştirak edərək əlindən gələn köməyi etmişdir.

1920-ci il mayın 25-də xalq komissarlığı maarif şöbəsinin qərarı ilə Şərqin ilk konservatoriyası yaradıldıqdan sonra o, Üzeyir bəyin məsləhəti ilə konservatoriyaya daxil olaraq musiqi nəzəriyyəsini mənimsəmişdir. Dahi bəstəkarın ölümündən sonra Bakıda "Arşın mal alan" musiqili komediyasının, Moskvada isə "Koroğlu" operasının klavirinin nəşr olunub işıq üzü görməsində M.Hacıbəyovanın böyük xidmətləri olmuşdur. O, 1966-cı ildə Bakı şəhərində vəfat etmişdir.

*Rafiq SƏFƏROV,*
*Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin əməkdaşı*

● Mədəniyyət xəbərləri

## Bakı - "Məhəbbət və əfsanələr şəhəri"

**İndoneziyanın "The Jakarta Post" qəzeti Azərbaycanda səfərdə olmuş müxbiri Viramala Ancayanın Bakıdan bəhs edən məqaləsini yayıb.**



"Gözəl Bakı - məhəbbət və əfsanələr şəhəri" adlı məqalədə müəllif indoneziyalı oxuculardan Avropa və Asiyanı birlikdə görmək, müxtəlif iqlim qurşaqlarında olmaq və özünəməxsus gözəlliklərə malik bir ölkəyə səfər etmək istəyirsinizmi - deyə soruşur. Özü də cavabında bildirir ki, əgər bunu istəyirsinizsə, mütləq Azərbaycana səfər edin.

İndoneziyalı jurnalist Bakının hazırda dünyanın populyar turizm istiqamətlərindən birinə çevrildiyini vurğulayır. O, məhəbbət dastanları və əfsanələrlə zəngin Bakının həm qədim, həm də müasir tikililəri ilə göz oxşadığına diqqət çəkir, burada UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Qız qalası, İçərişəhər, Şirvanşahlar sarayı kimi tarixi abidələrin yerləşdiyini bildirir. Maraqlı möcüzələri ilə diqqəti cəlb edən bu diyarda Yanardağ kimi təbiət möcüzəsinin turistlər tərəfindən böyük maraqla qarşılandığı da məqalədə qeyd edilir.

Azərbaycan paytaxtının mühüm beynəlxalq tədbirlərin, idman və musiqi yarışlarının keçirildiyi dünya miqyaslı mərkəzlərdən birinə çevrildiyi oxuculara təqdim edilir. O da vurğulanır ki, bu il Bakıda futbol üzrə "Avro-2020"-nin bir sıra oyunları da keçiriləcək.

## Hind abidələrinin Qobustanda fotosərgisi

**Qobustan Milli Tarix-Bədii Qoruğunda "Qobustanda Hindistan mədəni irsinin inciləri" adlı tədbir keçirilib. Qobustan Milli Tarix-Bədii Qoruğunun və Hindistanın Azərbaycandakı səfirliyinin birgə təşkil etdiyi tədbir çərçivəsində həmin ölkənin tarixi abidələrini əks etdirən fotosərgi nümayiş olunub.**

Tədbir iştirakçıları Hindistanın mədəni irs nümunələri ilə tanış olmaqla yanaşı, zəngin təqdimat proqramını da izləyiblər.

Məqsəd Hindistan mədəni irsini Azərbaycanda tanıtmaq və iki ölkənin mədəniyyət sahəsində əlaqələrini inkişaf etdirməkdir.

Mətbuat mövzusunda

# Əyrilər əyri, düzlər düz yazar!

Qlobal informasiya mühitinin yarandığı müasir dövrdə cəmiyyətin əsas strateji resursuna çevrilmiş informasiyanın rolu günbəgün artmaqdadır. Peşəkar mətbuatın məhsulu olan dürüst informasiya istənilən ölkənin siyasi, iqtisadi, müdafiə və s. kimi əsas təhlükəsizliklərinin vəziyyətinə təsir göstərmək iqtidarına malik bir qüvvəyə çevrilmişdir. Bu proses Azərbaycanda da sürətlə gedir. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı bu sahədə görülən işlərdən xəbər verir. Qarşıya qoyulan əsas məqsəd informasiya cəmiyyətinə keçidi təmin etməkdir. Azərbaycanda informasiya cəmiyyətinin qurulması sahəsində məqsədyönlü işlər aparılır. Qeyd edək ki, son illər ərzində respublikada telekommunikasiya infrastrukturu müasirləşdirilmiş, yeni texnologiyaların tətbiqi əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təmin olunması üzrə bir sıra Beynəlxalq Konvensiya və sazişlərə qoşulub. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli “Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında” fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura nəzarəti ləğv edilib. Bu fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsindəki dövlət proqramının əsas istiqamətlərini müəyyənləşdirib. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkəmizin nüfuzlu beynəlxalq təşkilata - Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra respublikamızda aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə münbit şərait yaradıb. Jurnalistlərə peşəkarlıq, milli-mənəvi dəyərlərə hörmət, obyektivlik, vətənpərvərlik kimi meyarları fəaliyyətlərində əsas tutmağı tövsiyə edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu ilin mart ayında imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılmışdır ki, bu təsisatın da məqsədi Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən kütləvi informasiya vasitələrinə dövlət dəstəyini təmin etməkdir.

Yaşadığımız çağdaş dövrdə cəmiyyətdə cərəyan edən ictimai-siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində kütləvi informasiya vasitələrinin rolu getdikcə artmaqdadır. Cəmiyyət həyatının bütün sahələrində kütləvi informasiya vasitələrinin qarşısında mühüm vəzifələr durur. Bu gün Azərbaycan mediası müasir informasiya cəmiyyəti quruculuğunda milli həmrəyliyin möhkəmləndirilməsi yolunda öz kəsərli sözünü deməli, hər bir şəxsin şərəf və ləyaqətinə, şəxsi həyatının toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalı, milli-mənəvi dəyərlərin qorunub saxlanmasında mühüm rol oynamaqla ictimai fikrin formalaşmasında aparıcı mövqe tutmalıdır.

Hərtərəfli obyektiv araşdırma aparmaqla oxucuya həqiqi məlumatı çatdırmaq, baş verənləri düzgün şərh etmək, fəaliyyətində jurnalistin tərəfsizlik prinsipinə qeydşərtsiz əməl etmək öz vəzifə borcunun icrasında hər bir media nümayəndəsinin rəhbər tutmalı olduğu mühüm amildir. Kütləvi informasiya vasitələri Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının prinsiplərinə ciddi riayət etməklə ictimailəşdirdiyi hər bir informasiyanın məsuliyyətini dərk etməli, oxuculara təqdim edilən yazıda heç kimin şərəf və ləyaqətinə toxunmamalı, şəxsi həyatın toxunulmazlığı prinsipinə hörmətlə yanaşmalıdırlar.

Bakı Metropoliteni paytaxtın rəmzlərindən biridir. Elə buna görə Ulu Öndər Heydər Əliyev Bakı Metropolitenini Azərbaycan xalqının milli sərvəti adlandıraraq ona ən böyük tarixi qiymətini verib. Ümummilli Lider metro inşaatçıları və istismarçılarının əməyinin nə qədər dəyərli olduğunu həmişə qeyd edib, onlara hörmət və ehtiramını ifadə edib. Ənənələrə sədaqət bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kursunun başlıca qayəsidir.

“Bakı Metropoliteni” QSC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi yüksək diqqət və qayğı nəticəsində bu nəqliyyat növünün movcud infrastrukturunun qorunub saxlanılması, inkişaf etdirilməsi və yeni texnologiyaların tətbiq edilməsi, bununla da sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində son illərdə irihəcmli işlər görüb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 289 saylı sərəncamına əsasən, Bakı Metropoliteninin və “Azərtunelmetrotikinti” Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasından sonra Bakı Metropoliteni yeni inkişaf mərhələsinə qədəm qoyub. Təsis olunduğu tarixdən keçən zaman kəsiyində müəssisənin əmək kollektivinin fədakar əməyi sayəsində vahid bir təsərrüfat kompleksi olan metropolitenin maddi-texniki bazası gücləndirilməklə yanaşı, bütün sahələrdə, o cümlədən paytaxtın yol-nəqliyyat infrastrukturunda yüksək beynəlxalq standartların tətbiqinə nail olmaq, göstərilən nəqliyyat xidmətini müasir tələblər səviyyəsinə qaldırmaq, müasir korporativ idarəetmə mexanizmlərini tətbiq etməklə kadrların düzgün seçilməsi, yerləşdirilməsi, bilik səviyyələrinin artırılması istiqamətində köklü islahatlar aparmaqla şəffaf fəaliyyəti ilə nümunəvi bir müəssisənin formalaşdırılmasına nail olunub.

Dəqiqlik, qərəzsizlik, vicdanlı olmaq, operativlik və bu qəbildən olan digər kriteriyalar mətbuatda əsas prinsiplər sayılır. Amma heç də bütün jurnalistlər, mətbu orqanlar öz fəaliyyətlərində bu prinsiplərə əməl etmirlər. Bu qəbildən olan bəzi kütləvi informasiya vasitələri öz natəmiz əməlləri ilə Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının təməl prinsiplərini pozur, qarşı tərəfin fikirlərinin dərcinə önəm vermədən dəqiqləşdirilməmiş, qeyri-obyektiv məlumatları imkanlarından sui-istifadə etməklə yayaraq ictimaiyyətdə yaradıcı insanlar, əmək kollektivlərindəki idarəetmə sistemləri barədə mənfi fikir formalaşdırmağa, ayrı-ayrı müəssisələr üzrə əldə edilən nailiyyətləri sıravi vətəndaşın gözündən salmağa cəhd etməklə zəhmətkeş fərdlərin kollektiv qarşısında nüfuzuna xələl gətirməyə çalışır, vətəndaşların heysiyyətinə toxunur, şəxsi həyatın toxunulmazlığı prinsipinə laqeyd yanaşaraq səhifələrində insanların şərəf və ləyaqətini aşağılamaqdan belə çəkinmirlər.

Belə ki, pressinfo.az internet saytında “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətində görülən işlərə, əldə olunan böyük nailiyyətlərə kölgə salmağa çalışan bir qrup şəxslərə istinadən yalan və qərəzli, şər və böhtan dolu 2018-ci ilin 25 oktyabr tarixində **“Bakı Metropolitenində irtica dərinləşir”** başlıqlı, 28 noyabr tarixində **“Bakı Metropoliteni real təhlükə qarşısında”** başlıqlı və 31 dekabr **“ÖLÜM TUNELİ - 2019: Bakı Metropoliteni faciənin astanasında”** başlıqlı yazılar verilmişdi. Saytın baş direktoru Nüşabə Əhmədin müəllifliyi ilə ictimailəşdirilən həmin məqalələr əslində həqiqi jurnalist, obyektiv kütləvi informasiya vasitəsi adına ləkə gətirən qərəzli yazılardır.

Yaydığı qərəzli yazılarda adıkeçən saytın rəhbərliyi ictimai nəqliyyat növləri arasında kütləviliyi ilə aparıcı mövqe tutan Bakı Metropoliteninin inkişaf etdirilməsi istiqamətində dövlət başçısının məqsədyönlü siyasətini şübhə altına qoymaqla bu ictimai nəqliyyat növündən istifadə edən sərnişinlərdə qorxu xofu və milli sərvətimiz olan Bakı metropoliteninə inamsızlıq hissi yaratmağa cəhdlər göstərir ki, bu da ölkəmizin inkişafı və cəmiyyətdə ictimai sabitliyin qorunması kimi dövlət əhəmiyyətli məsələlərin həllinə pozuculuq təsirini açıq-aydın göstərir. İctimaiyyətdə “Bakı Metropoliteni” QSC və onun vəzifəli şəxsləri barədə mənfi rəy və yanlış fikir formalaşdırmaq məqsədi güdən həmin yazılarda məkrli niyyət aşkar şəkildə özünü büruzə verir, kollektivin fədakar əməyinə xələl gətirilir.

Jurnalistikanın təməl prinsiplərinə məhəl qoymadan “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətində görülən işlərə, qısa müddətdə əldə olunan ciddi nailiyyətlərə kölgə salmağa çalışan həmin şəxslərin yalan və qərəzli, şər və böhtan dolu mülahizələrinə istinadən pressinfo.az internet saytından öncə miq.az internet saytında da yazılar yer almışdı. “Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununun 44-cü maddəsinə əsasən kütləvi informasiya vasitəsində fiziki və hüquqi şəxslərin şərəf və ləyaqətini ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar verildikdə, fikirlər təhrif olunduqda fiziki şəxsin özünün və ya nümayəndəsinin, hüquqi şəxsin rəhbərlərinin, yaxud səlahiyyətli nümayəndəsinin həmin kütləvi informasiya vasitəsində bir ay müddətində cavab vermək, həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını, düzəliş verilməsini, habelə üzr istənilməsini tələb etmək hüququnun olduğunu rəhbər tutaraq “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan Mətbuat Şurasına müraciəti əsasında Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası tərəflərin iştirakı ilə iclas keçirmişdir.

İclasda Mətbuat Şurasının media ilə dövlət qurumları arasında körpü rolu oynadığını qeyd edən komissiya üzvləri qərara almışlar ki, tərəflər məsələnin müsbətə doğru həlli istiqamətində müəyyən addımlar atmalıdırlar. Tərəflərin arqumentləri dinlənildikdən sonra miq.az saytının rəhbərliyi bildirmişdir ki, dərc olunmuş yazılar digər internet resurslarında və sosial şəbəkələrdə yayıldığına görə dəqiqləşdirilməsi zaman tələb etdiyindən operativ xəbər prinsipinə uyğun saytda yerləşdirilib ki, bu da həmin nöqsanların baş verməsinə səbəb olub. Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası miq.az saytı tərəfindən “Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının”nın bir sıra prinsiplərinin pozulması faktlarını, habelə Azərbaycan Mətbuat Şurasının 9 aprel 2003-cü il tarixli qərarı ilə təsdiq edilmiş şikayətlərin verilməsi və onlara baxılması qaydalarının 8-ci bəndini rəhbər tutaraq 18 sentyabr 2018-ci il tarixində keçirilmiş iclasının 157№-li qərarı ilə həmin xəbər saytının “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti haqqında müxtəlif vaxtlarda yaydığı materiallarda “Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları”nın prinsiplərinin pozulması faktlarının yer alması və ictimailəşdirilmiş materialların subyektiv mülahizələrə əsaslanması səbəbindən bununla bağlı təkzib verilməsinin zəruriliyini adıkeçən xəbər saytının nəzərinə çatdırmışdır. Miq.az xəbər saytı “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti haqqında və ictimailəşdirdiyi materiallarda göstərilən faktların subyektiv jurnalist mülahizələrinə əsaslandığını qəbul edərək, xəbər saytında bununla bağlı yerləşdirilmiş materiallarla əlaqədar təəssüf hissi keçirdiyini ifadə etməklə müəyyən edilmiş qaydada 19.10.2018-ci il tarixində təkzibin saytda yerləşdirilməsini təmin etmişdir.

Eyni şəxslərin yalan və qərəzli, şər və böhtan dolu mülahizələrinə istinadən pressinfo.az internet saytında həmin saytın baş direktoru Nüşabə Əhmədin müəllifliyi ilə ayrı-ayrı tarixlərdə yerləşdirilmiş materiallara münasibətdə pressinfo.az internet saytında müvafiq təkzib verilməsi ilə bağlı “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Mətbuat Şurasına müraciət etmişdir. Müraciət əsasında Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyası tərəflərin iştirakı ilə iclas keçirmiş, araşdırmanın nəticəsi olaraq həmin saytın baş direktoru Nüşabə Əhmədin müəllifliyi ilə ayrı-ayrı tarixlərdə həmin saytda yerləşdirilmiş materiallarda balans prinsipinin ciddi pozulması aşkar edilmişdir. Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının 05 fevral 2019-cu il tarixli iclasının qərarı ilə qarşı tərəfin münasibətini öyrənmədiyinə və əsaslandırılmamış fikirlərə yer verdiyinə görə saytın baş direktoru Nüşabə Əhmədə Mətbuat Şurası tərəfindən xəbərdarlıq edilmiş və saytın rəhbərliyinə qarşı tərəfin rəyini dərc etmək tövsiyə olunmuşdur. “Bakı Metropoliteni” QSC-nin rəhbərliyi müəssisənin rəhbər şəxslərinin, o cümlədən ictimaiyyətdə “Bakı Metropoliteni” QSC və onun vəzifəli şəxsləri barədə mənfi rəy və yanlış fikir formalaşdırmaq məqsədi güdən həmin şəxslərin və pressinfo.az internet saytının baş direktoru Nüşabə Əhmədin iştirakı ilə geniş tərkibdə görüşünü təşkil etmiş, həmin görüşdə bütün təsdiqedici sənədlər Nüşabə Əhmədin diqqətinə çatdırılaraq ona bildirilmişdir ki, məqalənin müəllifi kimi, bir neçə şəxsin heç bir hüquqi əsası olmayan subyektiv mülahizələrinə istinadən rəhbəri olduğu saytda ictimailəşdirilmiş məqalələrə görə o da məsuliyyət daşıyır. Həmin görüşdə Nüşabə Əhmədə tövsiyə olunmuşdur ki, Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarının prinsiplərinə ciddi riayət etməklə ictimailəşdirdiyi hər bir informasiyanın məsuliyyətini bir jurnalist kimi dərk etmək onun vəzifə borcu olduğuna görə müəyyən edilmiş qaydada rəhbəri olduğu xəbər saytında təkzib versin, əks təqdirdə kütləvi informasiya vasitəsində fiziki və hüquqi şəxslərin şərəf və ləyaqətini ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar verildikdə, fikirlər təhrif olunduqda həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını və rəsmi üzr istənilməsini tələb etmək hüququnun olduğunu rəhbər tutaraq “Bakı Metropoliteni” QSC məhkəməyə müraciət etmək məcburiyyətində qalacaqdır. Qanunvericiliklə nəzərdə tutulmuş bütün qanuni tədbirləri həyata keçirməsinə baxmayaraq adıkeçən saytda müvafiq təkzib dərc edilmədiyindən “Bakı Metropoliteni” QSC işgüzar nüfuzunun müdafiəsi və dəymiş zərərin əvəzinin ödənilməsinə dair məhkəməyə müraciət etmək hüququndan istifadə edərək cavabdehlərə qarşı aidiyyət prinsipi əsasında Sabunçu Rayon Məhkəməsində iddia qaldırmışdır.

Sabunçu Rayon Məhkəməsi “Bakı Metropoliteni” QSC-nin pressinfo.az, araz.az saytları ilə bağlı iddia ərizəsinə baxaraq “Bakı Metropoliteni” QSC barəsində həqiqətə uyğun olmayan məlumatların yayımına görə, “pressinfo.az” saytının baş redaktoru Əhmədova Nüşabə Bəyoğlan qızının yazılı şəkildə həmin internet saytında yerləşdirilməklə “Bakı Metropoliteni” QSC-dən üzr istəməsi və rəhbərlik etdiyi saytda yerləşdirdiyi bütün materialları “Təkzib” başlığı altında yerləşdirməsina dair, həmçinin araz.az saytının təsisçisi və baş redaktoru Mustafayev Hüseyn Əziz oğlunun da “Bakı Metropoliteni” QSC-dən yazılı şəkildə rəhbəri olduğu internet saytında yerləşdirilməklə üzr istəməsi və saytında yerləşdirdiyi həqiqətə uyğun olmayan yazının linkində “Təkzib” başlığı altında yerləşdirilməsi barədə qətnamə çıxarmışdır. Eyni zamanda məhkəmənin qətnaməsi ilə Şixəliyev Fikrət Sərvər oğlu, Abdullayev Nazim Mədət oğlu, Əhmədova Nüşabə Bəyoğlan qızı, Rzayev Asif Mirzə oğlu və Mustafayev Hüseyn Əziz oğlundan müştərək qaydada vurulmuş mənəvi zərərin əvəzi olaraq 500 manat pul tutularaq “Bakı Metropoliteni” QSC-nin xeyrinə ödənilməsi qət edilmişdir.

Mətbuat cəmiyyətin aynasıdır. Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının öz əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verib. Hüquqi dövlət və açıq cəmiyyət quruculuğu yolunu seçən müstəqil Azərbaycanımızda mətbuatın dövlət və cəmiyyət həyatındakı roluna mühüm önəm verilir ki, bütün bu proseslərin əsas iştirakçıları, əldə olunan nəticələrin əsas səbəbkarları öz fəaliyyətlərində dövlətin, xalqın mənafelərini daim uca tutan, peşə etikasına ciddi riayət edən, obyektivlik, qərəzsizlik prinsiplərini özlərinin həyat amalına çevirən Azərbaycan jurnalistləridir. Təəssüf ki, bu gün ifrat siyasiləşmiş, ayrı-ayrı şəxslərin təsiri altına düşmüş bəzi “jurnalistlər” qərəzsizlik, obyektivlik, vicdanlılıq, hadisələrə obyektiv baxış kimi başlıca prinsipləri mütəmadi qaydada pozur, ayrı-ayrı dövlət məmurlarının, ictimai-siyasi xadimlərin, vətəndaşların şərəf və ləyaqətinə toxunan yazılar yazmaqla qeyri-peşəkarcasına bazara “isti” xəbər çıxarmaq adı ilə jurnalistikanın başlıca prinsiplərinə zidd olaraq obyektivlikdən və etikadan uzaq mülahizələrin, yalan, böhtan və dezinformasiyaların mətbuata çıxmasına şərait yaradırlar. Halbuki hər bir jurnalist xidməti vəzifəsini yerinə yetirərkən insan hüquqlarını, demokratik prinsipləri və etik davranış qaydalarını nəzərə almalıdır. Jurnalistikanın bu tələblərinin pozulması halları təkcə əmək kollektivlərində deyil, cəmiyyətdə də haqlı narazılıqlara səbəb olur. Belə ki, “Bakı Metropoliteni” QSC-dən üzr istəməsi və rəhbərlik etdikləri saytlarda yayımladıqları müvafiq materialları “Təkzib” başlığı altında yerləşdirməsinə dair barələrində məhkəmə qətnaməsi olan pressinfo.az, araz.az xəbər saytlarında dərc olunmuş məqalələrlə analogiya təşkil edən yazılar yaxın günlərdə digər kütləvi informasiya vasitəsi olan “Hürriyyət” qəzetində də yer almışdır. “Hürriyyət” qəzetinin 1-3 fevral 2020-ci ilin №11 (2983) və 4-5 fevral 2020-ci ilin №12 (2984) buraxılışlarında “Bakı Metropoliteni” QSC barəsində həqiqətə uyğun olmayan, “Bakı Metropoliteni” QSC-nin işgüzar nüfuzuna ciddi xələl gətirən **“Zaur Hüseynov “Bakı Metropoliteni”ni məhvə aparır”** və **“Bakı Metropoliteni”nin işçiləri “həyəcan təbili” çalır”** başlıqlı məqalələr qarşı tərəfin münasibətini öyrənmədən çap olunmuşdur. Heç bir əsası olmayan və ən əsası isə pressinfo.az, araz.az xəbər saytlarındakı yazılarda yer alan eyni ittihamların təkrarlanması ilə müşayiət olunan həmin məqalələrin həqiqətə uyğun olmaması səbəbindən həmin mətbu orqanın da növbəti buraxılışında təkzib verilməsinə dair “Bakı Metropoliteni” QSC tərəfindən adıkeçən kütləvi informasiya vasitəsinə müraciət ünvanlanmışdır.

Fəaliyyətini müasir dövrün tələblərinə uyğun olaraq quran “Bakı Metropoliteni” QSC yarandığı ilk gündən heç bir fərq qoymadan ölkə mediasına daim açıq olub. Metropolitenin ictimai əhəmiyyətli bir qurum və şəhərin ən mühüm ictimai sərnişindaşıma nəqliyyatı vasitəsi olduğu nəzərə alınaraq müəssisədə şəffaflıq, obyektivlik və operativlik kimi keyfiyyətlər daim prioritet kriteriyalar sayılır. Eyni zamanda “Bakı Metropoliteni” QSC bu sahədə çağdaş dövrün bütün imkanlarından istifadə edərək həm rəsmi internet saytı, həm də sosial şəbəkələrdəki səhifələri vasitəsilə ictimaiyyətə daim açıq bir təşkilat olduğunu təsdiqləyir.

“Bakı Metropoliteni” QSC-nin bütün aidiyyəti idarəetmə strukturlarının fəaliyyəti qanunvericiliyin tələblərinə uyğun qurulmuşdur ki, müəssisənin həm istismar, həm tikinti, eyni zamanda, digər struktur vahidlərində aparılan quruculuq işləri barədə, tətbiq edilən texnoloji yeniliklər haqqında müəssisədə fəaliyyət göstərən elektron portal vasitəsilə əmək kollektivinin hər bir üzvü, o cümlədən səhmdar cəmiyyətin rəsmi internet saytı vasitəsilə respublika ictimaiyyəti mütəmadi olaraq məlumatlandırılır, istər metropolitendə çalışan işçilərin, istərsə də kənar şəxslərin “Bakı Metropoliteni” QSC-yə ünvanlanmış müraciətlərinə və ya şikayətlərinə “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun baxılır, müəssisəyə ünvanlanmış hər bir vətəndaşın təklifi dəyərləndirilir, tənqidlərə açıq mövqe və obyektiv yanaşma nümayiş etdirilir.

Xüsusi olaraq qeyd edilməlidir ki, ölkənin iqtisadi imkanlarının artdığı, demokratikləşmə prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu hazırkı şəraitdə mətbu orqanların üzərinə daha məsul vəzifələr düşür. Yeni mərhələnin reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Bu gün ölkə ictimaiyyəti dövlətin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən daha yüksək prinsipiallıq, vətəndaş mövqeyi, milli təəssübkeşlik tələb edir.

Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uzaqgörən, çoxşaxəli və səmərəli dövlət siyasətinin məntiqi nəticəsi olaraq əminik ki, mətbuatımız daha da saflaşacaq, təkmilləşəcək, öz fəaliyyətində peşəkar jurnalistika prinsiplərini rəhbər tutaraq cəmiyyətin obyektiv informasiya ilə təminatında öz sözünü deyəcəkdir.

***Bəxtiyar MƏMMƏDOV,***
***“Bakı Metropoliteni” QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi***

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# “AzerGold” QSC-nin nümayəndələri MATSA mədəni ilə tanış olublar






**“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) mətbuat xidmətindən verilən məlumata görə səhmdar cəmiyyətin sədr müavini Xəyyam Fərzəliyevin rəhbərliyi ilə nümayəndə heyəti dünya bazarında ən böyük özəl metal tədarükçüsü olan Trafigura şirkətinin dəvəti əsasında İspaniya Krallığında səfərdə olub.**

Səfərin məqsədi MATSA (Minas de Aguas Tenidas) yatağı ilə tanışlıqdan, dağ-mədən sahəsində tətbiq olunan qabaqcıl texnologiyanın öyrənilməsindən və işgüzar əlaqələrin genişləndirilməsindən ibarətdir.

Səfər çərçivəsində Huelva şəhərində yerləşən MATSA mədəninə baxış keçirilib, mis, sink və qurğuşun konsentratlarının istehsal prosesi izlənilib. Cəmiyyətin nümayəndələri şirkətin dağ-mədən sahəsində mövcud olan maddi-texniki bazası, eləcə də fabrik və laboratoriyada yaradılan şəraitlə tanış olublar. Keçirilən ikitərəfli görüşdə MATSA polimetal yatağının Balakən rayonunda yerləşən Filizçay yatağı ilə oxşar cəhətlərə malik olduğu bildirilib. Qeyd olunub ki, bu yataq filiz ehtiyatlarının həcminə görə Avropanın ən iri yataqlarındandır və dünya üzrə polimetal yataqlarının ilk onluğuna daxildir. “AzerGold” QSC-nin bu yatağı yaxın gələcəkdə istismara verəcəyi nəzərə alınaraq, Trafigura şirkəti ilə işgüzar əlaqələrinin genişləndirilməsinin səmərəli əməkdaşlıq üçün mühüm töhfələr verə biləcəyi vurğulanıb.

Qeyd edək ki, Trafigura dağ-mədən sahəsilə yanaşı, karbohidrogen məhsullarının satışı və logistika sahəsində də fəaliyyət göstərir. Şirkətin mədənçilik qanadı olan “Trafigura Mining Group” mədən əməliyyatlarını idarə edir, əlvan metal filizi yataqlarının öyrənilməsi, geoloji kəşfiyyat, mövcud və potensial layihələrin texniki auditi ilə məşğul olur. Müəssisənin ən böyük mədən sahəsi olan MATSA yatağının istismarına 1997-ci ildə başlanılıb. Hasilat Birləşmiş Ərəb Əmirliklərinin Mubadala İnvestisiya şirkəti ilə ortaq fəaliyyət çərçivəsində aparılır.

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2020-ci ilin mart ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**11 mart 2020-ci il**

1. Mingəçevir şəhəri
2. Lənkəran rayonu
3. Kürdəmir rayonu
4. Füzuli rayonu
5. Qazax rayonu

**31 mart 2020-ci il**

1. Qəbələ rayonu
2. Xızı rayonu
3. Saatlı rayonu
4. Ağdaş rayonu
5. Qubadlı rayonu

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.



# DÜNYA



Beynəlxalq siyasət



# İdlibdə atəş dayandırıldı

## Yeni status-kvo dayanıqlı olacaqmı?

**Suriyanın İdlib vilayətində xeyli vaxtdır davam edən gərginlik nəhayət, sona çatdı. Srağagün saat 00.01-dən etibarən vilayətdə atəş dayandırılmışdır. Müvafiq razılaşma Moskvada Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında keçirilmiş danışıqların yekunu olaraq əldə edilmişdir. İki ölkənin liderləri İdlibdə yaranmış ağır vəziyyəti hərtərəfli müzakirə edərək atəşin dayandırılmasına qərar vermişlər.**

Moskva danışıqları istər Rusiya-Türkiyə əlaqələrinin perspektivləri, istərsə də Suriyada cərəyan edən proseslərin gələcəyi baxımından böyük əhəmiyyət kəsb edirdi. Həm Rusiya, həm də Türkiyə rəsmiləri ikitərəfli əməkdaşlığın zərər görməməsi üçün bütün səylərini ortaya qoyub qarşılıqlı əlaqələrin inkişafına tərəfdar çıxdılar. Suriya münaqişəsinə gəlincə, ortaq məxrəcə gəlmək asan olmadı: tərəflər İdlibdə sakitliyi bərpa etmək üçün uzun-uzadı danışıqlar aparmalı oldular. Nəticə etibarilə Rusiya və Türkiyənin 2018-ci ilin sentyabrında imzaladığı "İdlib gərginliyin azaldılması zonasında vəziyyətin sabitləşdirilməsi haqqında memorandum"a əlavə protokol ortaya çıxdı. Protokolda üç əsas məqam yer almışdır: 1) Gərginliyin azaldılması zonasında atəşin dayandırılması; 2) Suriyanın şimalı ilə Latakiya vilayətini birləşdirən M4 avtomobil yolu boyunca eni 6 kilometr olan təhlükəsizlik dəhlizinin yaradılması; 3) Martın 15-də M4 avtomobil yolunda Rusiya-Türkiyə birgə patrulunun fəaliyyətə başlaması.

Üstəlik Rusiya və Türkiyə liderləri mətbuat konfransında Soçi memorandumuna sadiq qaldıqlarını bildirməklə yanaşı, Suriya münaqişəsinə münasibətdə əvvəlki mövqelərini təkrarladılar. Putin bir daha Suriyanın ərazi bütövlüyünün və suverenliyinin vacibliyini vurğuladı, terrorçu qruplaşmalarla mübarizənin labüdlüyünü qeyd etdi. Ərdoğan isə diqqəti daha çox regionda humanitar böhranın kəskinləşməsinin qarşısını almağa yönəltdi. Bu da təbiidir. Belə ki, İdlibdə döyüşlərin şiddətlənməsi ilə yüz minlərlə suriyalı qaçqın Türkiyə sərhədinə üz tutmuşdur. Dörd milyona yaxın qaçqın qəbul etmiş bir ölkənin yeni qaçqın dalğasına tab gətirməsi son dərəcə çətindir. Ona görə də Ankara İdlibdə təhlükəsizlik zonasının yaradılmasında həmişə israr edir, suriyalı qaçqınların vətənə qayıtmasını təmin etməyin bir nömrəli məsələ olduğunu nəzərə çarpdırırdı. Ərdoğanın dediyinə görə, Türkiyə Rusiya ilə birlikdə ehtiyacı olan bütün suriyalılara kömək göstərilməsi üzərində işləyəcək: "Biz həmçinin məcburi köçkünlərin təhlükəsiz və könüllü şəkildə əvvəlki yaşayış yerlərinə qayıtmasını təmin edəcəyik".

İdlibdə atəşin dayandırılması, şübhəsiz, təqdirəlayiq haldır. Bununla bərabər, silahların bundan sonra da susmasını təmin etmək vacibdir. İdlibdə sabitliyin bərqərar edilməsi naminə göstərilən səylər Soçi memorandumuna əsaslanır və memoranduma əlavə edilmiş protokol əslində yeni status-kvonu təsbit edir. İndi qarşıda duran vəzifə bu status-kvonu qoruyub saxlamaqdır.

Suriya rejimi müttəfiqlərinin köməyi ilə ölkədə yaradılmış dörd gərginliyin yaradılması zonasının üçünü artıq ələ keçirmişdir. Hazırda İdlib silahlı müxalifətin yerləşdiyi yeganə zona olaraq qalır. Dəməşq və onun müttəfiqləri gizlətmirlər ki, son gərginliyin azaldılması zonasını da nəzarət altına almağı planlaşdırırlar. Suriya hökumət qoşunlarının keçən ilin dekabrında vilayətdə hücum əməliyyatına başlaması elə bu məqsədi reallaşdırmaqdan irəli gəlirdi. Bəhanə də vardı: terrorçu qruplaşmalar atəşkəsi pozub hökumət qoşunlarının və müttəfiqlərin mövqelərinə basqın edir. Silahlı qarşıdurmanın güclənməsi şəraitində çoxsaylı dinc sakinin ev-eşiyini tərk edib məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi nə Dəməşqi, nə də onun tərəfdaşlarını maraqlandırırdı.

Soçi memorandumunda terrorçu qruplaşmalarla mübarizə həqiqətən yer alır. Bununla yanaşı, sənəddə Türkiyənin təhlükəsizliyinin təmin olunması məsələsi də qeyd edilmişdir. Odur ki, Türkiyə Silahlı Qüvvələri Bəşşar Əsəd qoşunlarını gərginliyin azaldılması zonasından vurub çıxarmaq üçün tədbir görməli olmuşdur. "Bahar qalxanı" şərti adı altında keçirilən əməliyyatın gedişində Suriya hökumət qoşunları həm canlı qüvvə, həm də hərbi texnika baxımından xeyli tələfat vermiş, zəbt etdiyi mövqelərin bəzilərindən geri çəkilmək məcburiyyətində qalmışdır. Yəqin ki əməliyyatın davam edəcəyi təqdirdə Bəşşar Əsəd rejiminin itkiləri daha çox olacaqdı. Lakin Türkiyənin məqsədi Suriyanın hökumət qoşunlarını diz çökdürmək yox, İdlibdə humanitar böhranın dərinləşməsinin qarşısını almaq və milli təhlükəsizliyini təhdid edən qüvvələri yerində oturtmaq idi. Ona görə də Ankara atəşin dayandırılması istiqamətində səy göstərdi və buna nail oldu.

Bununla belə, İdlibdə atəşkəs rejiminin son dərəcə kövrək olduğu açıq-aşkardır. Vilayətdə yaşayanların hamısına terrorçu damğası vurub onlarla mübarizəyə girişənlər hələ də niyyətlərindən əl çəkməyiblər. Amma Ankara da həmin qüvvələrin əhvali-ruhiyyəsinin fərqindədir. Prezident Ərdoğanın qeyd etdiyi kimi, Türkiyə əli qoynunda oturub qalmayacaq və Suriya rejiminin hər hansı hücumuna cavab vermək hüququnu özündə saxlayır.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

Münaqişə

# Əfqanıstanda sabitliyi bərqərar etmək mümkün olmur

## ABŞ - "Taliban" sazişi pozulur



Əfqanıstanda 40 ildir davam edən gərgin vəziyyətin sonu görünmür. 2001-ci ildə ölkəyə hərbi müdaxilə etmiş ABŞ "əfqan bataqlığı"ndan üzüsulu çıxmaq üçün sürəkli səy göstərmiş və nəhayət, ötən ayın 29-da "Taliban" radikal hərəkatı ilə ölkədə sülh prosesinə start vermək və müharibəyə son qoymaq üçün saziş bağlamışdır.

Dünyanın 30-a yaxın ölkəsinin nümayəndələrinin, həmçinin NATO-nun baş katibi Yens Stoltenberqin iştirakı ilə Qətərin paytaxtı Dohada imzalanmış sənəddə deyilir: 1) Taliblər əldə olunmuş razılaşmalara riayət etsələr, ABŞ qoşunlarını 14 ay ərzində ölkədən çıxaracaq; 2) Saziş imzalandıqdan sonra "Taliban"la Əfqanıstan hökuməti arasında danışıqlar başlamalıdır; 3) "Taliban" öz üzvlərinin heç birinə, o cümlədən "əl-Qaidə"yə Əfqanıstan ərazisindən ABŞ və onun müttəfiqlərinin təhlükəsizliyini sarsıtmaq üçün istifadə etməyə imkan verməyəcək; 4) Martın 10-dək ABŞ və Əfqanıstan hökuməti 5 min əsiri azadlığa buraxacaq, "Taliban" 10 minədək əsirin sərbəst qalmasını təmin edəcək.

İlk addım kimi Əfqanıstanda yerləşdirilmiş ABŞ hərbçilərinin sayı 13 min nəfərdən 8600 nəfərə endiriləcək. Qoşunlar 14 ay ərzində tamamilə çıxarılacaq.

Belə bir müqavilənin bağlanması Vaşinqton üçün tarixi hadisə idi. ABŞ qoşunları 11 sentyabr 2001-ci il terror hücumlarından dərhal sonra Əfqanıstana daxil olmuşdur. Bu, Amerika tarixində ən uzunmüddətli hərbi kampaniyadır. Təxminən 19 il ərzində 2400-dən artıq amerikalı hərbçi həlak olmuşdur.

Bir çox müşahidəçilər taliblərlə sövdələşməni Prezident Donald Tramp administrasiyası üçün kifayət qədər riskli hesab edirdilər, çünki saziş "Taliban"ı beynəlxalq birliyin gözündə legitimləşdirir. Lakin Tramp hələ seçkiqabağı kampaniyanın gedişində Əfqanıstanda müharibəni dayandırmağı qarşısına qoyduğu vəzifələrdən biri elan etmişdir. Eyni zamanda ABŞ-ın müdafiə naziri Mark Esper söz vermişdi ki, işlər düz getməsə, Vaşinqton Doha sazişini qüvvədən sala bilər.

Öz növbəsində Qətər paytaxtında ABŞ-la "Taliban" arasında saziş imzalanmasını milyonlarla əfqan uzunmüddətli müharibədən sonra dinc həyata qovuşmaq şansı kimi qiymətləndirir. Onlar hesab edirlər ki, saziş ölkədə zorakılığın səviyyəsini aşağı salmağa, siyasi böhranı tənzimləməyə kömək edəcək.

Eyni zamanda ekspertlər proqnozlaşdırırdılar ki, əfqanların özləri arasında danışıqlar daha ağır keçəcək, tərəfləri qane edəcək razılaşmalar əldə etmək asan olmayacaq. Təəssüf ki, proqnozlar özünü doğrultmağa başlayır. ABŞ-"Taliban" sazişi imzalandıqdan cəmi bir neçə gün sonra, daha doğrusu, martın 4-də atəşkəs pozuldu. Həmin gün "Taliban" Qunduz şəhərinin yaxınlığında milli ordunun nəzarət-keçid məntəqələrinə hücum etmiş, nəticədə 20 hərbi qulluqçu və polis əməkdaşı həlak olmuşdur. Hadisədən iki gün əvvəl "Taliban" hərəkatı elan etmişdi ki, ölkədə zorakılığın aşağı salınması rejimi sona çatmışdır və indi taliblər Əfqanıstan hökumətinə qarşı hərbi əməliyyatları bərpa edirlər.

"Taliban"ın atəşkəsi pozması ABŞ-ın sərt reaksiyasına səbəb olmuşdur. Birləşmiş Ştatlar martın 4-də Gilmənd əyalətinin Nari Sarac rayonunda Əfqanıstan hökumət qoşunlarının mövqelərinə hücum edən "Taliban" silahlılarına havadan zərbə endirmişdir. Pentaqon bildirmişdir ki, bu zərbə müdafiə xarakterli idi və taliblərin hücumunu pozmaq məqsədi güdürdü.

Hadisələrin gedişi göstərir ki, Əfqanıstanda sülhü bərpa etmək bir yana qalsın, sabitliyə oxşar vəziyyəti bərqərar etmək son dərəcə mürəkkəbdir. Münaqişənin iki əsas tərəfi - hökumət və "Taliban" arasında mövqeləri yaxınlaşdırmaq hətta uzaq gələcəkdə mümkün olmayacaq. Talibər nəinki legitim hökumətlə dialoqa girmək istəmir, hətta onu tanımaqdan boyun qaçırırlar. Yeri gəlmişkən, 2013-cü ilin iyununda hökumətlə taliblər arasında Dohada təmas qurmaq planlaşdırılmışdı. Amma taliblər danışıqların keçiriləcəyi ofisdə qarşılarına "Əfqanıstan İslam Əmirliyi" lövhəciyini qoyduqdan sonra hökumət danışıqlardan imtina etmiş və sülh danışıqları dayandırılmışdır.

Ekologiya

# Çirkli hava insan ömrünü qısaldır

**Havanın qlobal çirklənməsi 8,8 milyon vaxtsız ölümün səbəbidir. Bu qənaətə Almaniyadakı Maks Plank Cəmiyyətinin Kimya İnstitutunun alimləri gəlmişlər.**



Ekspertlərin hesablamalarına görə, çirkli hava insan ömrünü orta hesabla 3 il qısaldır. Havanın çirklənməsi malyariyadan 19 dəfə, QİÇS-dən 9 dəfə və alkoqoldan 3 dəfə çox adam öldürür. Özü də bu ölüm hallarının yarısı ürəyin işemik xəstəliyinə və insultun payına düşür.

Alimlər hesab edirlər ki, ən çox zərərçəkən region Asiyadır. Məsələn, Çində orta ömür 4,1 il, Hindistanda 3,9 il və Pakistanda 3,8 il qısalmışdır. Bu baxımdan Avropanın ən əlverişsiz ölkələri arasında Bolqarıstan, Macarıstan və Rumıniya yer almışdır.

Dünya Səhiyyə Təşkilatının mütəxəssisləri və Danimarkanın Orxus Universitetinin alimləri də bu problemin tədqiqi ilə birgə məşğul olmuşlar. Onlar müəyyənləşdirmişlər ki, adamlar çirkli havanın təsirindən bir neçə il tez dünyalarını dəyişirlər.

Mütəxəssislər havanın çirklənməsinin ömür uzunluğuna necə təsir etdiyini hesablayarkən belə qənaətə gəlmişlər ki, havası çirkli olan regionda yaşayış adamların ömrünün orta hesabla 10 ilini əlindən alır. Tədqiqatçılar bu qənaətə Avropa Statistika Bürosunun son 40 ildə topladığı məlumatları və ABŞ üzrə analoji statistikanı təhlil etdikdən sonra gəlmişlər. Layihənin müəllifləri bildirmişlər ki, havada çirkləndiricilər kütləsinin miqdarının hətta 1 kubmetrə 10 mikroqram artması insan həyatını 9-11 il qısalda bilər.

Alimlərin fikrincə, havanı ən çox çirkləndirən kül hissəcikləri, kükürd 4-oksidi, habelə avtomobil nəqliyyatı və sənaye müəssisələrinin tullantılarından daxil olan və daim havada qalan maddələr kütləsidir.

Ekspertlərin qənaətinə görə, insanların yaşadığı regionda ekoloji vəziyyət yaxşılaşdıqca adamların çirkli hava ucbatından vaxtından əvvəl ölmək riski azalır.

Tədqiqatçılar vurğulayırlar ki, çirkli hava udmaq nəticəsində baş verən ölüm hallarının təxminən üçdə ikisinin qarşısını almaq olar, çünki atmosferi adamlar zəhərləyirlər. Məsələn, işlənmiş qazlar birbaşa havanın çirklənməsinə gətirib çıxarır.

Qeyd edək ki, almaniyalı alimlərin hazırladıqları kompüter modeli dünyanın müxtəlif ölkələrində ömrün gözlənilən davamiyyətini hesablaya bilmişdir. Məlum olmuşdur ki, çirkli hava ömrü orta hesabla təqribən üç il qısaldır.

Bundan əlavə, "The Daily Mail" qəzetinin xəbərinə görə, tütündən asılılıq ömrün gözlənilən davamiyyətini 2,2 il, QİÇS xəstəliyi 0,7 il, malyariya xəstəliyi 0,6 il və müharibələrdə ölüm halları daxil olmaqla bütün zorakılıq formaları 0,3 il qısaldır.

## Meyvezer 600 milyon dollara Həbiblə vuruşmağa hazırdır

**Amerikalı boksçu Floyd Meyvezer rusiyalı Həbib Nurməhəmmədovla 600 milyon dollara döyüşməyə hazırdır. Bu barədə "Mirror" qəzeti xəbər verir.**

Meyvezerin dediyinə görə, bu döyüş onun üçün risklidir və bu risk özünü doğrultmalıdır.

Xatırladaq ki, bir müddət əvvəl yüngül çəkidə çempion adı qazanmış Nurməhəmmədova Meyvezerlə döyüşə görə 100 milyon dollar təklif olunmuşdu.

Həbib Nurməhəmmədovun növbəti döyüşü aprelin 19-da olacaq. O, UFC turnirində amerikalı Toni Fergüsonla üz-üzə gələcək.

## Məhkəmə əsir düşərgəsinin sabiq mühafizəçisini ABŞ-dan qovur

**1945-ci ildə Aşağı Saksoniya vilayətinin Meppen şəhərinin yaxınlığındakı Noyenqamm əsir düşərgəsində mühafizəçi kimi xidmət etmiş Almaniya vətəndaşı və ABŞ-ın Tennessi ştatının sakini Fridrix Karl Berger ölkədən deportasiya olunacaq.**

Müvafiq qərarı Tennessi ştatının Memfis şəhərində immiqrasiya məsələləri üzrə hakim Rebekka Holt çıxarmışdır. Məhkəmənin qərarında deyilir ki, Berger məhbusların təqibə məruz qaldığı əsir düşərgəsində könüllü olaraq mühafizəçi işləmişdir. Əsirlər arasında yəhudilər, polyaklar, ruslar, danimarkalılar, hollandlar, latışlar, fransızlar, italyanlar və nasistlərin digər "siyasi əleyhdarlar"ı olmuşdur. Hakim Holtun gəldiyi qənaətə görə, əsirlər dəhşətli şəraitdə saxlanmış və digər düşərgələrdə olduğu kimi, açıq havada məcburi əməklə məşğul olmuş, üzülüb ölənədək işləmək məcburiyyətində qalmışlar.

Fridrix Karl Berger 1959-cu ildən bəri ABŞ-da yaşayır.

## Meteoritdə yerdənkənar mənşəli zülal

**Alimlər ilk dəfə meteoritdə aşkarlanmış yerdənkənar mənbədən zülal kəşf olunduğunu bildirmişlər. Təqdiqatçıların hesabatına görə, "gemolitin" adlı yeni zülalın kiçicik izləri Acfer 086 meteoritinin daxilində aşkar edilmişdir. Tapıntı Yerdə və kainatın digər yerlərində həyatın əmələ gəlməsini dərk etmək üçün böyük əhəmiyyətə malik ola bilər. Düzdür, bunu digər tədqiqatçılar da təsdiqləməlidirlər.**

Tədqiqatın həmmüəllifi, Harvard Universitetinin molekulyar bioloqu Culi MakQeç bildirir ki, tədqiqatların nəticələrini təsdiqləməkdən ötrü hazırda digər alimlərin də rəyi lazımdır.

Məlumata görə, tədqiqatçılar komandası nəticələri Milli Elmlər Akademiyasına təqdim etmiş, lakin onlara hələ ki rəy verilməmişdir.

Kəşfin digər alimlər tərəfindən də təsdiqlənməsinin vacibliyinə baxmayaraq, aşkarlanmış "meteorit zülalı" 10 ildən artıq davam etmiş tədqiqatın nəticəsidir.

## İnsult təhlükəsindən necə qorunmalı

**Oksford Universitetinin alimləri insan rasionunun insultların statistikası ilə əlaqəsini yoxlamışlar. "MedikForum" qəzetinin xəbərinə görə, tədqiqatda 4 milyon nəfərdən çox adam iştirak etmişdir. Yekunda məlum olmuşdur ki, süd, pendir, yoğurt və xamanı artıqlaması ilə qəbul edən adamlarda insult təhlükəsi yoxdur.**

Ekspertlər həmçinin müəyyənləşdirmişlər ki, bir stəkan artıq süd işemik insult riskini 5 faiz, bir pay yoğurt isə 9 faiz azaltmağa qadirdir. Çox yumurta yemək isə əksinə, insult təhlükəsini yüksəldir.

Öz növbəsində həkimlər gündəlik rasionu tərəvəz və meyvə ilə zənginləşdirməyi məsləhət bilmişlər. Bunun üçün gündə 200 qram meyvə-tərəvəz qəbul etmək kifayətdir. Menyuda yumurtaların sayını məhdudlaşdırmaq tövsiyə olunur.

Təbiət

# "Əyri meşə" müəmması

Polşanın qərbində, Qrifin şəhərinin yaxınlığında hələ 1930-cu ildə əkilmiş sirli "Əyri meşə" yerləşir. Meşənin ərazisində başqalarına bənzəməyən qeyri-adi ağaclar bitir. 400-dən çox şam ağacının əyilmiş gövdələri eyni istiqamətə baxır...



Hazırda təxminən 1,8 hektar sahədə yerləşən bu qəribə meşə təbiətin müəmmalı abidəsi hesab olunur. Ərazi dövlət tərəfindən mühafizə edilir və ona görə ağacların kəsilməsi qəti qadağan edilmişdir. Ağaclar yerdən təxminən 30 santimetr məsafədə şimal tərəfə əyilməyə başlayır, sonra zərif qövs təşkil edərək düzəlir.

Mütəxəssislər diqqəti belə bir fakta yönəldirlər ki, 80 yaşlı şam ağacları üçün 15 metr hündürlük çox azdır. Bu qeyri-adi halın səbəbləri indiyədək məlum deyil. Lakin ağacların qəribə şəkildə bitməsinin bir neçə maraqlı versiyası var. Bu versiyaların birinə görə, ağaclar sonradan mebel, xizək, qayıq və s. düzəltmək üçün bilərəkdən insan tərəfindən bu vəziyyətə salınmışdır.

Lakin Qrifin şəhərinin meşəçiləri bildirirlər ki, bu şam ağaclarının gövdələri hansısa mebel istehsalı üçün yararlı deyil. Onlar əmindirlər ki, "sərxoş" meşə ana təbiətin oyunudur.

Başqa bir versiyaya görə, ağaclar çox güclü küləklərin təsirindən əyilmişdir. Daha bir məzəli fikir belədir ki, hansısa yerli seleksiyaçı bu meşədə heç kəs azmasın deyə bilərəkdən bütün ağacların şimal tərəfə üz tutduğu meşə əkmişdir.

Qoruğa ancaq xüsusi buraxılışla daxil olmaq mümkündür. Postdan təxminən 40 kilometr sonra "Əyri meşə"yə çatacaqsınız. Meşədə olmuş şahidlər deyirlər ki, orada qeyri-adi atmosfer hökm sürür: nə çəyirtkələrin cırıldaması, nə quşların oxuması, ümumiyyətlə, heç nə eşidilmir.

Bu cür müəmmalı təbiət anomaliyaları Yer kürəsində yeganə deyil. Məsələn, Rusiyanın Kalininqrad vilayətinin "Kurşskaya kosa" Milli Parkında Polşadakı "sərxoş" meşənin oxşarı var. Bu yaxınlarda orada da qeyri-adi əyilmiş formalı ağaclar bitən qəribə ərazi aşkar olunmuşdur.

Bir çox alimlər hesab edirlər ki, "sərxoş" meşə təbii hadisələr nəticəsində əmələ gəlmişdir. Versiyaların birinə görə, bu ərazidə cavan şam ağaclarının gövdələri o qədər zəifdir ki, güclü küləyə, temperaturun kəskin dəyişməsinə və rütubətə tab gətirmir. Digər versiyaya görə, cavan ağacların gövdələri şam ağacının parazitləri tərəfindən korlanmışdır. Bu isə ağacların gövdələrinin əyri bitməsinə səbəb olmuşdur. Kosmobiologiya nöqteyi-nəzərindən "sərxoş" ağacların bitdiyi ərazi mənfi energetik qüvvəyə malikdir ki, bu da ağacların istiqamətini dəyişdirir.

# Əsrlərin yadigarları



Qədim İçərişəhərə maraq heç vaxt azalmır. Son dövrlərdə turizmin inkişafı ilə əlaqədar buranı ziyarət edənlərin sayı daha da artıb.

Yerli və xarici turistlər tarixin qədim nişanəsi olan tikililərə tamaşa etməklə kifayətlənmirlər. Onlar eyni zamanda Azərbaycan xalqının məişətini əks etdirən bir çox əşyalarla tanış olurlar. Satışa qoyulan xalçaçılıq məhsullarını, qədim mis qabları, bir sıra suvenirləri həvəslə alırlar.

Əsrlərin yadigarı olan samovarlar, səhənglər, qazanlar, güldanlar və s. xüsusilə diqqəti cəlb edir. Şəhərimizin qonaqları bu əşyaların "təvəllüd"ü, təyinatı, dəyəri ilə maraqlanır, geniş məlumat əldə edirlər. Bir çox hallarda həmin əşyaları alıb səyahətlərindən xatirə kimi evlərinə aparır, yaxud bunların arasından əzizləri üçün hədiyyə seçirlər.

*"Azərbaycan"*
*Foto Fərman BAĞIROVUNDUR*

# Qusar şəhərinin və Şahdağ Turizm Mərkəzinin yeni turizm xəritəsi hazırlanıb

Quba Destinasiya Menecmenti Təşkilatı tərəfindən Qusarda fəaliyyət göstərən turizm sənayesi nümayəndələri üçün yeni turizm xəritələri hazırlanıb.

AZƏRTAC xəbər verir ki, xüsusi dizaynda tərtib olunan turizm vəsaitlərində Qusar şəhərinin, Şahdağ Turizm Mərkəzinin, həmçinin Quba-Qusar rayonlarının regional xəritələri, turizm məkanları və turistlər üçün nəzərdə tutulmuş məhsullar öz əksini tapıb.




İngilis dilində hazırlanan A3 ölçülü xəritələr hər bağlamada 100 ədəd olmaqla hotellərə və turizm şirkətlərinə təqdim ediləcək. Bu xəritələr turizm müəssisələrinə müraciət edən qonaqlara regiondakı ziyarət olunmalı məkanlarla bağlı tövsiyələr verilməsi üçün münasib vasitədir.

Bundan əvvəl Quba şəhərinin xəritəsi də istifadə üçün hazırlanıb. Xəritələr ilin sonunadək turizm sənayesi nümayəndələrinə pulsuz veriləcək.

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) aşağıdakı LOTlar üzrə açıq tender üsulu ilə elektron satınalma (eTender) keçirir

1. **Ehtiyat hissələrinin satın alınması;**
2. **Xırda avadanlıqların satın alınması.**

İddiaçılara təklif edilir ki, https://www.etender.gov.az Dövlət satınalmalarının vahid internet portalına (Portal) asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və eTender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. eTenderdə iştirak etmək istəyən iddiaçılar ehtiyat hissələrinin satın alınması üzrə 40 AZN, xırda avadanlıqların satın alınması üzrə isə 20 AZN məbləğində müəyyən edilən iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T bik: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 06 aprel 2020-ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 14 aprel 2020-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 15 aprel 2020-cu il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

eTenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi kiçik və orta biznesin tədris və konsaltinq platforması üçün təlim videolarının hazırlanması xidmətinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1000 AZN**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:**
**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: "Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ33AIIB38060019440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**
**Büdcə səviyyəsinin kodu: 7**
**Büdcə təsnifatının kodu: 142340**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü güvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **06.04.2020-ci il saat 18:00-a** qədər və tender təklifi ilə bağlı bank təminatı sənədlərini **14.04.2020-ci il saat 16:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **15.04.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar nəticələrlə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. İddiaçılar E-şərtlər toplusunu 10.03.2020-ci il saat 16:00-dan sonra (elan tarixi günü) əldə edə bilərlər.*

***Tender komissiyası***

Gülağa Bala Həsən oğlu Məmmədova məxsus Dövlət Sosial Sığorta Şəhadətnaməsi və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə 221900 - "Digər malların alınması" maddəsi üzrə uşaq müəssisələrində uşaqlarla məşğələlər üçün müxtəlif ləvazimatların, yeməkxana və mətbəx ləvazimatlarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

LOT 1. 221900 - "Digər malların alınması" maddəsi üzrə uşaq müəssisələrində uşaqlarla məşğələlər üçün müxtəlif ləvazimatların və mətbəx ləvazimatlarının alınması

Tender iştirakçılarına təklif olunur ki, www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT-1 200 manatdır.**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu: 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **14 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **22 aprel 2020-ci il saat 16:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 aprel 2020-ci il saat 16:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC "Yaşıl", "Qırmızı" və "Bənövşəyi" xətlərinin stansiya və yol mənzillərindəki havalandırma şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin "Yaşıl", "Qırmızı" və "Bənövşəyi" xətlərinin stansiya və yol mənzillərindəki havalandırma şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin satın alınması**
**İştirak haqqı - 400 manat**

**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **03 aprel 2020-ci il saat 14:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **13 aprel 2020-ci il saat 14:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **14 aprel 2020-ci il saat 14:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 26 yanvar 2020-ci il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsi ilə proqram təminatına dair lisenziyaların satın alınması məqsədilə dərc edilmiş tenderində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 12 mart 2020-ci il saat 18:00-a, təkliflərin açılışı isə 13 mart 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs Məmmədyar Musayev, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzetinin kollektivi "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyevə atası

**ŞAMİL MÜRSƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyevə atası

**ŞAMİL MÜRSƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyevə atası

**ŞAMİL MÜRSƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6954
Sifariş 759
Qiyməti 40 qəpik